# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 49 (3373) Çərşənbə axşamı / 18-19 may 2021-ci il Qiyməti 40 qəpik


MÜSAHİB

## Şuşadan dünyaya növbəti mesaj...



**Səyavuş Heydərov,**
Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin

*Son bir neçə gün ərzində Azərbaycan Prezidenti İlham Əliyev və birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı ilə Ramazan bayramı ərəfəsində Şuşada «Xarıbülbül» festivalı təşkil edildi. Prezidentin Şuşa səfəri zamanı yeni məscidin təməli qoyuldu, ardınca isə Qəbələnin Nic kəndində yenə də dövlət başçısı tərəfindən kilsə ziyarət edilib, udi icmasının problemləri dinlənildi. Bu səfərlər həm də ölkəmizdə multikultural dəyərlərin, tolerantlıq ənənələrinin bariz nümunəsi kimi dəyərləndirilir. «Həftə içi» qəzetinin müsahibi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərovdur.*

*Dini qurumların yenidən dövlət qeydiyyatına alınması prosesi başlayandan, yəni 2009-cu ildən bu günədək 970 dini qurum dövlət qeydiyyatına alınıb*

Səh. 2

# "QARAGÖL" MÜƏMMASI

***Artıq bir neçə gündür ki, Azərbaycan Qərbi Zəngəzur ərazisində dövlət sərhədlərinin bərpası, tarixi ərazilər üzərində nəzarətin özümüzə qaytarılması prosesini davam etdirir. Növbəti belə proses Laçın rayonunun Ermənistanla sərhəd ərazilərində, Qaragöl hövzəsində reallaşdırıldı. Lakin gözlənildiyi kimi, Ermənistan Azərbaycan ordusunun tarixi və hüquqi torpaqlarında növbəti yerləşməsini çox ağrılı və ciddi etirazla qaşılandı. 44 günlük müharibə dövründə olduğu kimi, erməni baş nazir Nikol Paşinyan və komandasının üzvüləri yenidən telefon "diplomatiyası"na başladı. Fransa, ABŞ, Rusiya, Litva, ATƏT, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı... hətta Cənubi Qafqaz bölgəsinə heç bir aidiyyatı olmayan dövlətlərə belə Azərbaycanın guya Ermənistanın "suveren əraziləri"nə müdaxilə etdiyinə dair şikayətlər edildi. Özlərini növbəti dəfə "yazıq və köməksiz" kimi təqdim etməyə çalışdılar. Səbəb isə aydındır: vəziyyəti gərginləşdirmək, bununla beynəlxalq aləmin diqqətini cəlb etmək, seçkilər öncəsi bu amildən istifadə edərək müharibədə alınan məğlubiyyətin sonucu olaraq aşağı düşən reytinqlərini yüksəltmək.***



Fransa "hərbi yardım", Rusiya danışıqlar vəd edir...

Paşinyanı hakimiyyətdən devirməyə çalışan digər siyasi qüvvələrə gəldikdə isə, onlar Şurnux kəndinin geri qaytarılması prosesində olduğu kimi, bu dəfə də sərhədlərin müəyyənləşdirilməsini ərazi itkisi, hakimiyyətin Ermənistanın "milli maraqlaını və suverenliyini" qoruya bilməməsi kimi qələmə verməklə, hər yolla məsələni şişirtməyə və gündəmdə saxlamağa çalışdılar.

Paşinyan hökuməti daha da irəli gedərək Azərbaycanın "ölkənin suveren ərazilərinə müdaxiləsini" əsas gətirərək Kollektiv Təhlükəsizlik Şurasını prosesə cəlb etmək istədi. Rusiyaya hərbi yardım üçün müraciət etdi və s. Bununla belə, Azərbaycanın məlum proseslərə soyuqqanlı yanaşması, ermənilərin təxribatçı oyunlarına məntiqli və tutarlı arqumentlərlə cavab verməsi Ermənistanda istər iqtidar, istərsə də müxalifətdə dayanan siyasi qüvvələrin planlarını tamamilə pozdu.

Ekspertlər də bildirir ki, KTMT-nin məlum prosesə müdaxiləsi üçün heç bir əsas yoxdur. KTMT-nin məsələyə müdaxiləsi yalnız üzv dövlətin ərazi bütövlüyünün pozulması faktı sübut olunacağı təqdirdə mümkündür. Azərbaycan və Ermənistan sərhəddində isə belə bir müdaxilədn söhbət gedə bilməz.

**■ Sərhədlərin delimitasiyası keçən əsrin 50-ci illərində SSRİ Nazirlər Kabineti yanında kartoqrafiya və geodeziya Baş İdarəsi tərəfindən hazırlanmış, 1975-ci ildə Silahlı Qüvvələr üçün Müdafiə Nazirliyinin 6-cı tipoqrafiyasında çap edilmiş xəritələr əsasında aparılır. Bu xəritələr administrativ-ərazi bölgüsünü həyata keçirtmək üçün ATƏM-in 1975-ci ildə Helsinki konfransının Yekun Aktı əsas tutularaq qəbul edilmiş SSRİ-nin 1977-ci il Konstitusiyası ilə əlaqədar hazırlanıb.**

Xatırladaq ki, bu sənədlər Ermənistan və Azərbaycan dövlət sərhədlərinin delimitasiyası ilə bağlı yeganə hüquqi sənədlər sayılır. Bu səbəbdən Qaragöl 1975-ci ildə Azərbaycan SSR ərazisinə aid idisə, 2021-ci ildə də Azərbaycan ərazisinə daxil edilməlidir.

KTMT-yə gəldikdə isə, təşkilat bu istiqamətdə sərhəddin hər iki dövlət tərəfindən tanınmamasına qədər hər hansı qərar qəbul etməyəcək. Səbəb isə çox sadədir. Defakto və de-yure Azərbaycan və Ermənistan arasınlda dövlət sərhəddi yoxdur. Çünki, dövlət sərhəddinə dair razılaşma mövcud deyil və sərhəd toqquşması da yaşanmır.

Hüquqi baxımdan əgər Ermənistan əraziləri dəqiqləşdirilməyibsə, sərhədlər yoxdursa Azərbaycan tərəfinin yüz metr irəliyə getməsi müdaxilə sayılmır. Məsələyə Moskvanın, elə cə azərbaycanlı politoloqların yanaşması da maraq doğurur.

**Sergey Lavrov, Rusiyanın xarici işlər naziri:**



**- Bircə dəfə də olsun atəş açılmayıb, heç bir atışma baş verməyib. Oturdular, sakitcə bu vəziyyəti necə həll edəcəkləri barədə danışıqlara başladılar. Bizdən kömək istədilər, hərbçilərimiz kömək göstərdilər, razılıq əldə olundu.**

Heç kim heç vaxt bununla məşğul olmayıb. Biz tərəflərə işə başlamağı təklif etdik. Biz yardım etməyə, kartoqrafik materialları və məsləhət xidmətlərini təqdim etməyə hazırıq. Rusiya Ermənistan-Azərbaycan sərhədindəki vəziyyətə görə emosiyaları gərginləşdirməyə səbəb görmür.

**Fərid Şəfiyev,**
**BMTM-nin İdarə Heyətinin sədri:**



**- Son günlər Ermənistan-Azərbaycan sərhədində vəziyyət iki ölkə arasında yenidən gərginliyin artmasına və beynəlxalq vasitəçilərin diqqətinin yenidən bölgəyə yönəlməsinə səbəb olub. Təəssüf ki, Azərbaycan torpaqlarının işğalı faktını 30 ilə yaxındır görməzdən gələn sözügedən vasitəçilər və dünya mediası bu dəfə keçmiş işğalçı ölkəyə dəstək göstərməyə tələsir və heç bir halda regionda sülhə xidmət etməyən, yanlış mesajlar verirlər.**

İlk olaraq qeyd edilməlidir ki, Ermənistan hələ də Azərbaycanın bir sıra yaşayış məskənlərini- Naxçıvanda Kərki kəndini və Qazaxın Sofulu, Bərxudarlı, Bağanis Ayrım, Qızıl Hacılı, Yuxarı Əskipara, Aşağı Əskipara və Xeyrimli olmaqla ümumilikdə 7 kəndini işğal altında saxlayır. İkincisi, Ermənistan anlamalıdır ki, iki ölkə arasında 30 ilə yaxın işğal altında qalmış sərhəd mövcuddur və İrəvandakı hökumət bu müddət ərzində sərhədə malik olmaq hissini itirib.

Üçüncüsü, delimitasiya iki ölkənin ərazi bütövlüyünü hörmət əsasında həyata keçirilməlidir. Əfsuslar olsun ki, Ermənistan siyasi partiyaları tərəfindən səsləndirilən fikirlərdə barışığa dair heç bir əlamət müşahidə olunmur. Dördüncüsü, beynəlxalq vasitəçilər, xüsusilə Fransa tərəfindən səsləndirilən mesajlar qəbuledilməzdir və sülhü təşviq etmək əvəzinə, vəziyyəti daha da gərginləşdirir. Bütün vasitəçilər, o cümlədən ABŞ və Fransa ermənilərin Qarabağdakı statusuna dair köhnəlmiş tezislərdən əl çəkməlidirlər.

Regionda davamlı sülhün bərqərar olmasının yeganə yolu Cənubi Qafqazda hər 3 ölkənin ərazi bütövlüyünə hörmətdən asılıdır. Bu həmçinin müxtəlif etnik icmaların öz iqtisadi və mədəni hüquqlarını inkişaf etdirmələrinə şərait yaratmaq əsasında həyata keçirilməlidir. Bu baxımdan məsələyə ikili standartlarla yanaşma yalnız "parçala, hökmranlıq et" imperialist tezisi əsasında region idarə etmək istəyən qüvvələrə xidmət edir.

Azərbaycan ötən ilki müharibədə qəti qələbə qazanmaqla öz mövqeyini möhkəmləndirib və bu baxımdan Azərbaycan xalqının təhlükəsizliyini təhdid altına ala biləcək istənilən cəhd uğursuz olacaq.

*Azad Əliyev*

MÜSAHİB



**Arif Paşa,**
Laçın alayının qurucusu və komandiri, ehtiyatda olan polkovnik

■ Rusiya hərbi kontingentinin Laçın "dəhlizi" və Yuxarı Qarabağdan vaxtından öncə çıxarılması üçün əlimizdə kifayət qədər əsas var...

■ Ermənilər nəinki Laçında, Qubadlıda, Zəngilanda, Kəlbəcərdə, Gədəbəydə, Qazaxda və s. də "dinc şəkildə" minlərlə hektar torpağımızı ələ keçirirdilər...

■ Laçının işğalınadək Qaragöl ətrafında postlarımız olub...

Səh. 3

GÜNÜN FOTOSU...



Qəzzada Associated Press və Al Jazeeranın ofisinin yerləşdiyi Al-Jalaa binasının partladılması anı...

GÜNÜN SİTATI

*"Azərbaycanlılar və gürcülər bizim vətəndaşlarımızdır. Onlar əsrlərdir birgə yaşayıblar, azərbaycanlılar bizim qardaşlarımızdır. Bu məsələ etnik münaqişə kimi qəbul edilməməlidir"*



**Vaxtanq Qomelauri,**
Gürcüstanın Daxili İşlər naziri

KARİKATURA



Makron yenə öz dəstəyini əsirgəmir...

## "Şuşada 300-dən çox abidəni qeydiyyata almışıq"

**Zahid Abbasov,**
Şuşa Mədəniyyət və Turizm İdarəsinin müdiri

Şəhərin qayalıq üstündə olan ərazisində 17 məhəllədən artıq məhəllə salmaq qeyri-mümkündür.

Səh. 5

STATİSTİKA



**■ Bu ilin yanvar-aprel aylarında istehlakçılar Azərbaycanın pərakəndə ticarət şəbəkəsində ərzaq məhsulları, içkilər və tütün məmulatlarına 6 603,8 mln. manat xərcləyib.**

Bu rəqəm əvvəlki ilin analoji dövrü ilə müqayisədə 7% və ya 434,1 mln. manat artıb. Cari ilin aprel ayında satışların həcmi 1 426,2 mln. manat təşkil edib ki, bu da mart ayı ilə müqayisədə 27,7% və ya 546,4 mln. manat azdır. İstehlakçıların xərclədiyi vəsaitin 54,9%-i ərzaq məhsulları, içkilər və tütün məmulatlarına alınmasına sərf olunub.



Səh. 4

## Təhsil infrastrukturunun yenilənməsi bəhrəsini verir

## PREZİDENTİN İŞ GÜNÜ

# Prezidentlər arasında telefon danışığı olub



**Mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevə telefonla zəng edib.**

Prezidentin Mətbuat Xidmətindən hafta.az-a bildirilib ki, Azərbaycan Prezidenti Qazaxıstan dövlətinin başçısını ad günü münasibətilə təbrik edib, ona ölkənin tərəqqisi naminə Prezidentlik fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulayıb.

Qazaxıstan Prezidenti göstərilən diqqətə və təbrikə görə, dövlətimizin başçısına minnətdarlığını bildirib. Dövlət başçıları ölkələrimiz arasında dostluq münasibətlərinin bundan sonra da uğurla inkişaf edəcəyinə bir daha əmin olduqlarını bildiriblər. Prezident İlham Əliyev son günlər Azərbaycan-Ermənistan sərhədində baş verən hadisələr barədə Qazaxıstan Prezidentini məlumatlandırıb. Bununla əlaqədar Azərbaycan Prezidenti bildirib ki, hazırda sərhədin dəqiqləşdirilməsi prosesi gedir və Ermənistan tərəfi bu prosesə qeyri-adekvat reaksiya nümayiş etdirir. Ermənistanın bununla bağlı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına müraciət etməsi isə məsələnin beynəlmiləlləşdirilməsi cəhdindən başqa bir şey deyil və bu, tamamilə əsassızdır, sərhəddə hər hansı bir toqquşma baş verməyib, vəziyyət sabitdir, danışıqlar davam etdirilir. Qazaxıstan Prezidenti bu məlumata görə, Prezident İlham Əliyevə təşəkkür edib.

***

**Prezident İlham Əliyev Qəbələ rayonunun Ağdaş-Zarağan (40 km)-Böyük Pirəli-Kiçik Pirəli-Xırxatala-Cığatelli-Həmzəli avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, yeddi min nəfər əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirən Ağdaş-Zarağan (40 km)-Böyük Pirəli-Kiçik Pirəli-Xırxatala-Cığatelli-Həmzəli avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 5,0 (beş) milyon manat ayrılıb.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etməli, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutmalıdır. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qəbələ rayonunun Nic qəsəbəsində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.**

Sərəncama əsasən Qəbələ rayonunun Nic qəsəbəsində 4 nömrəli tam orta məktəb üçün 360 şagird yerlik yeni binanın tikintisi məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 1,5 milyon manat ayrılıb.

Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etməli,İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məktəb binasının tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutmalı, Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Şuşadan dünyaya növbəti mesaj...

***Son bir neçə gün ərzində Azərbaycan Prezidenti İlham Əliyev və birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı ilə Ramazan bayramı ərəfəsində Şuşada «Xarıbülbül» festivalı təşkil edildi. Prezidentin Şuşa səfəri zamanı yeni məscidin təməli qoyuldu, ardınca isə Qəbələnin Nic kəndində yenə də dövlət başçısı tərəfindən kilsə ziyarət edilib, udi icmasının problemləri dinlənildi.***

Bu səfərlər həm də ölkəmizdə multikultural dəyərlərin, tolerantlıq ənənələrinin bariz nümunəsi kimi dəyərləndirilir. «Həftə içi» qəzetinin müsahibi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərovdur.



Foto: "HƏFTƏ İÇİ"

**Səyavuş Heydərov,**
Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini

### Şuşa səfəri...

***- Prezident İlham Əliyev Şuşaya səfər etdi, yeni məscidin təməlini qoydu. Həmzinin Yuxarı Gövhər Ağa məscidi də təmir olundu. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini kimi bununla bağlı fikirlərinizi e°itmək istərdik.***

- Cənab Prezidentin bu səfəri, təməli qoyulan məscidin və ordakı digər abidələrlə bağlı atılan hər bir addımın əhəmiyyəti böyükdür. Bu işlərlə cənab Prezident bütün dünyaya növbəti dəfə bir mesaj verdi. Heydər Əliyev Fondu tərəfindən təşkil olunan "Xarı Bülbül" festivalında cənab Prezidentin və vitse prezident Mehriban xanımın iştirakı, festivalın formatı çox mühüm əhəmiyyət kəsb edir. Bir daha Azərbaycan xalqı və Azərbaycan dövləti öz qədim torpaqlarına qayıtmasını dünyaya nümayiş etdirdi, mesajını verdi. Və bu torpaqlarda əbədi olacağını dünyaya çatdırdı. Dünyada sülhün, birgə yaşayışın tərənnümü olan multukulturalizm, tolerantlılığını nümayiş etdirdi. Bunun da necə mümkün olmasını bir daha təsdiqləmiş oldu. Çoxmillətli, çox konfensiyalı ölkəmizdə bərqərar olan tolerantlıq, multukulturalizm siyasətini bu festival və səfərlə bir daha təsdiqlədi.

***- Düşmənlərimiz sizin də bildiyiniz kimi, tarixi keçmişimizə elə bir zərbə vurub ki, bunun bərpası bir qədər çətindir. Bu istiqamətdə hansı işlər görülür?***

- Bu gün siz söylədiyiniz dini abidələrin dirzəldilməsi, milli mənəvi dəyərlərin bərpası olduqca əhəmiyyətli məsələdir. Bu gün Azərbaycanın tarixi torpaqlarında yenidən yaşamağa başlaması, ona sahib olması üçün sözügedən abidələr onun döyünən ürəyidir. Bu abidələr sanki bu torpaqların əzəli Azərbaycana məxsus olmasının simvoludur. Cənab Prezident bu barədə dəfələrlə bəyan etmişdi ki, bütün bu abidələr bərpa olunacaq, tikiləcək, insanlarımızın, çoxmillətli, çoxkonfessiyalı xalqımızın istifadəsinə veriləcək.

***- Şuşada və işğaldan azad edilmiş digər ərazilərdə islam irsi ermənilər tərəfindən dağıntılara məruz qalıb. Bununla bağlı aparılan araşdırmalar, görülən tədbirlər nə yerdədir? Hesabatlar hazırlanıb, beynəlxalq qurumlara təqdim edilibmi?***

- Bu barədə Xarici İşlər Nazirliyi, Mədəniyyət Nazirliyi tərəfindən orada ciddi araşdırmalar gedir. Hesablamalar, dəqiqləşdirmələr aparılır. Bu prosesdə dövlət Komitəsi olaraq, biz də iştirak edirik. Bizə aid olan məlumatlar təqdim olunur. Bu hesabatların, məlumatların bir qismi artıq hazırlanıb, aidiyyəti üzrə təqdim olunmuşdur və zaman-zaman da hazırlanıb, təqdim olunmaqdadır. Əlbəttə ordakı dağıntıların, vandalizminin miqyası o qədər böyükdür ki, bunları, dəqiqləşdirərək, hesablamaq bir qədər zaman tələb edir. Ancaq işlər sürətlə davam etdirilir.

### Qəbələ səfəri...

***- Diqqətinizi Prezident İlham Əliyevin Qəbələ səfərinə çəkmək istərdim. Bu səfərdən öncə dövlət başçımız Şuşada oldu və məscidin təməlqoyma mərasimində iştirak etdi. Şuşa səfərindən sonra Qəbələdə müqəddəs Məryəm ana Alban kilsəsində olan dövlət başçımız orada Alban kilsəsi ilə bağlı xüsusi göstərişlər verdi. Bununla bağlı Dini Qurumlar üzrə Dövlət Komitəsi tərəfindən hansı addımlar atılacaq?***

- Siz qeyd etdiyiniz məsələ Azərbaycanın daim diqqət mərkəzində olub. Ölkəmizdə ümumiyyətlə 35 qeyri-islami icma qeydiyyatdan keçib. Onlardan da bir neçəsi Alban-udi icmalarıdır ki, ümumiyyətlə bütün xalqların mədəni irsinin qorunması həmişə bizim üçün prioritet məsələdir. Dini abidələrin qorunması da həmçinin. Bu öz növbəsində dövlət-din siyasətinin başlıca hissəsidir. Bu səbəbdən də bu icmaların fəaliyyətinin inkişaf etdirilməsi üçün dövlət tərəfindən onlara lazımi diqqət və qayğı göstərilir. İcmalar tərəfindən də bu qayğı yüksək dəyərləndirilir. Bildiyiniz kimi hər il Cənab Prezidentin sərəncamı ilə bu icmaların fəaliyyəti və inkişafı üçün maddi vəsait də ayrılır. Heydər Əliyev Fondu tərəfindən də bu abidələrin təmiri və bərpaslı ilə bağlı kifayət qədər işlər görülür. Bu günlərdə Qəbələnin Nic qəsəbəsində də Müqəddəs Məryəm ana kilsəsini cənab Prezident və xanımı ziyarət etdi. Noyabr ayında o kilsənin açılışı olmuşdu və o Heydər Əliyev Fondu tərəfindən bərpa edilib. Bu da Azərbaycanın bir daha multukultural, tolerant ənənələrə sadiq qaldığını nümayiş etdirdi.

***- Müqəddəs Yenisey adlı Cotari kilsəsində də oldu, dövlət başçımız. Prezidentin bu səfərini multukultural dəyərlər baxımından necə şərh edərdiniz?***

- Bu gün ölkəmizdə multukulturalizmin nə qədər möhkəm dayaqlara söykəndiyi, təcrübə sınağından tam olaraq, keçib. Onun özünü doğrultduğunu və artıq töhvə verdiyini 44 günlük savaşda gördük. Zəfərin əldə edilməsində mən 3 amili qeyd edərdim. Birincisi cənab Prezidentin, müzəffər ali baş komandanın çox uzaqgörən, müdrik, hərbi - siyasi gedişləri müharibənin taleyini həll etdi. Yəni istər müharibədən əvvəlki, istər müharibə, istərsə də sonrakı dövrlərdə cənab Prezident Azərbaycanın haqq işini və bu münaqişənin həlli yollarını çox xırdalıqları və incəlikləri ilə dünya ictimayətinə çatdırırdı. Və Azərbaycan beynəlxalq təşkilatların, BMT-nin qətnəmasini təkbaşına icra etdi. Əlbəttə burda ordumuzun sücaəti və qəhrəmanlığı da çox önəm kəsb etdi. İkinci məsələ kimi mən bunu qeyd edərdim. Belə modern ordu yaradıldı. Görün ordunun atəşləri necə dəqiqliklə idi.

***- Adətən belə müharibədə mülkü insanlar kütləvi şəkildə həyatını itirir. Amma Ermənistan tərəfinin mülki şəxslərinə, mülki obyektlərinə ziyan dəymədi. Baxmayaraq ki, ermənilər bizim mülkü obyektlərimizi, şəhərlərimizi, insanlarımızı vururdu...***

- Onlar belə edirdi ki, biz də onların kəndlərini, şəhərlərini, mülkü obyektlərini vuraq. Ancaq bu da Prezidentin müdrik bir yanaşması idi ki, biz belə etmədik. Multukulturalizm, tolerantlıq budur. Tolerantlıq olduqca dərin və mənalı ifadədir. Bax Azərbaycan öz multukultural dəyərlərini, tolerant dəyərlərə sadiqliyini burada göstərdi. Hansı ki, bizdə məlumatlar da vardı ki, erməni hərbiçiləri dini abidələrin zirzəmisində gizlənib. Amma bizim ordumuz həmin istiqamətə atəş açmırdı. Baxmayaraq ki, müharibənin qaydalarına görə dğ°məni neytralla°dırmaq üçün Azərbaycan ordusu vura bilərdi. Bax budur, Azərbaycanın multukultural dəyərlərə sadiqliyi.

***- İşğaldan azad edilmiş ərazilərdə 67 məscidimizdən 64-ü yerlə yeksan olub. 3-ü isə yarı dağıntılı vəziyyətdədir. Dünya Birliyi niyə buna reaksiya vermir?***

- Haqlısınız, həmin əraziərdə 100-lə alban abidələri də dağıdılıb və yaxud özününküləşdirilib, saxtalaşdırılıb. Dünya birliyi buna reaksiya verib, araşdırmır. Bu onu göstərir ki, insanlar çox əhəmiyyət kəsb edən bəşəri dəyərlərdən uzaqlaşıblar. Onlar bəşəri dəyərlərə qarşı gedirlər. Bu isə dünyanı faciəyə, qarşıdurmaya aparır. Azərbaycanda multukulturazlizm və tolerantlıq siyasəti birmənalıdır. Dünyanı sülhə aparan bir siyasətdir. Azərbaycanın bu siyasəti ən ağır gündə də özünü təsdiqlədi. Yəni Azərbaycan daha aqressiv hərəkət edə bilərdi. Daha çox insanların qırılmasına səbəb ola bilən atəşlər aça bilərdi. Çünki onlar bizə atırdılar. Diqqət yetirin. Dünya Birliyi bunu dəyərləndirməlidir.

Necə olur ki, Gəncə, Bərdə, Tərtər kimi münaqişə ocaqlarından kənarda olan şəhərlərimizi raketlə vurub Azərbaycan əhalisini öldürürdülər. Azərbaycan isə onların mülkü əhalisinə bir dənə də olsun güllə atmır. Dünya birliyi bundan danışmalıdır, bunu dəyərləndirməlidir. Bax bu və bu kimi addımlarına görə Azərbaycan dünya üçün bir nümunədir. Fəxr edir, qürur duyuruq ki, belə bir məkanda yaşayırıq. Bu müharibədə milli və dini həmrəylik vardı. Ölkəmizdə yaşayan bütün millətlərin, xalqların, etnik qrupların nümayəndələri bir yumruq kimi birləşərək, savaşa can atdılar, döyüşdülər. Bu birlik qələbəmizdə çox mühüm rol oynadı.

### Dini qurumların qeydiyatı...

***- Azərbaycanda fəaliyyət göstərən dini qurumların qeydiyyat məsələsindən də danışmağınızı istərdik. Bu məsələ ilə bağlı Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə nə qədər müraciət var və bu istiqamətdə hansı işlər görülür?***

- Dini qurumların yenidən dövlət qeydiyyatına alınması prosesi başlayandan, yəni 2009-cu ildən bu günədək 970 dini qurum dövlət qeydiyyatına alınıb. Konfessional baxımdan onlardan 933-ü İslam, 37-si isə qeyri-islam təmayüllüdür. Eyni zamanda, 11 dini təhsil müəssisəsi dövlət qeydiyyatından keçib. Ölkə ərazisində 2250 məscid mövcuddur. Habelə, respublikada 16 kilsə və 7 sinaqoq fəaliyyət göstərir. Ölkədə ümumilikdə 748 pir və ziyarətgah müəyyən edilib.

İşğaldan azad olunmuş ərazilərimizdə indiyədək təsbit olunan tarixi-dini abidələrdən 67-si məscid, 139-u məbəd, 192-si ziyarətgahdır. Qeydiyyatdan keçmiş dini icmaların sayı 17-dir. Cənab prezidentin də dediyi kimi çoxmillətlilik, çox konfessiyalılıq özü elə inkişaf deməkdir. Biz Azərbaycan olaraq, tolerantlıq zirvəsini çoxdan keçmişik.

***✍ Tünzalə İsmayılova***

# Multikultural dəyərlərlə yaşayan Azərbaycan

***Azərbaycanın multikultural dəyərləri ilə bağlı söhbətimizi sosioloq Əhməd Qəşəmoğlu və politoloq Qabil Hüseynli ilə davam etdiririk:***



**Əhməd Qəşəmoğlu,**
sosioloq

**- Azərbaycanda dini inanclı insanlara hörmət var. Bu tək sözdə deyil, işdə də özünü göstərir. Bizim inancımıza görə kilsələrə həmişə Allahın evi kimi baxılıb. İstər kilsə olsun, istərsə hər hansı bir dini məkan, hamısına bir - Allah evi kimi baxılır. İndiki vaxtda görürük ki, Azərbaycanda ayrı-ayrı dinlərə mənsub insanların bir-biri ilə dostcasına, mehriban yaşaması ölkəmizin xeyrinədir.**

Prezidentin özü də dedi ki, haradakı çoxmillətlilik yoxdur, orada inkişaf da yoxdur. Bu, elə-belə, bədahətən deyilən söz deyil. Bunun böyük elmi əsası var. Elə sosiologiyada, kibernetikada, fəlsəfədə müxtəlifliyi cəmiyyətin inkişafına təkan verən məqam kimi dəyərləndirirlər. İstər din, istər elmi nəzəriyyələr olsun, hər biri göstərir ki, insanlar həmin müxtəliflikdə ziddiyyət yox, ahəngdar olaraq bir-birini tamamlayırsa, o ölkədə inkişaf olur. Prezidentin uzun illərdir apardığı siyasətin nəticəsidir ki, bütün etnik mənsubiyyətlərin, biotəmsilçilərin arasında qarşılıqlı əlaqələr qurulub. Azərbaycanda əsas aparıcı məqsəd dövlətçiliyin möhkəmlənməsidir. Yəni dinlər, hər hansı bir dinin nümayəndələri, yaxud din xadimlərinin hamısı ölkənin ümumi ideyası, dövlətçiliyin güclənməsi, Azərbaycançılıq ideyası ilə birləşir. Ortada daha yüksək, ali məqsəd olanda yerdə qalan başqa ideyalar, başqa fərqliliklər əsas ideyaya xidmət edir. Bizim ölkəmiz də müstəqillik əldə edəndən sonra bu ideya ilə irəli gedir. Ona görə də Prezidentin bu münasibəti həm ölkəmizin mənafeyi naminədir, həm də siyasi baxımdan beynəlxalq aləmə bir mesajdır. Bir daha hər kəsə bəyan edilir ki, siz bizi bu dinlərə, xiristianlığa, kilsələrə qarşı xoş olmayan münasibətdə günahlandıra bilməzsiniz. Şuşada 17 məscidin hamısı özünü xristian adlandıran ermənilər tərəfindən darmadağın edilib. Qarabağ zonasında yüzlərlə köhnə dini tikili, qədimdən qalan məbədlər məhv olub. Bizdə isə fərqli vəziyyətdir. Biz multikulturalizmi sadəcə dildə elan etmirik, həm də o prinsiplərə uyğun yaşayırıq. Ölkəmiz doğrudan da unikaldır. Azərbaycanda dünyanın aparıcı dinləri min illərboyu çulğalaşıb. Bu kiminsə əmri, istəyi, xahişi ilə deyil, təbii olaraq baş verir. Çox gözəl bilirik ki, Xəzər türkləri yəhudi inanclı olub, özümüz Alban türkləri udin, xristian inancında olub. Sonra biz İslamı qəbul eləmişik. Dünyanın aparıcı ideyaları hamısı bizə doğmadır.

> *Azərbaycan çox ağıllı yol seçərək, etnik mənsubiyyətlər və dini fərqliliklər arasında xoş münasibət yaradıb*

Burada dünyanın aparıcı dinləri bir-biri ilə təbii yolla sintezləşib. Dünyanın başqa yerlərində də belə sintezləşən dinlər var, amma bunlar məhəlli dinlərdir. Məsələn, Tibetdə, Cənubi Amerikada hansısa məhəlli dinlər bir-biri ilə sintezləşə bilər. Azərbaycanda dünyanın aparıcı dinləri sintezləşib: yəhudi, xristian, müsəlman və atəşpərəstlik. Bizim dahi Nizamini götürək, onun əsərlərində başqa dinlərə qarşı böyük diqqətlə yanaşılır, yəni bizdə hər kəsə Allahın bəndəsi kimi baxılıb. Dediyim kimi, Qurani-Kərimdə də başqa dinlərə xoş münasibət olub. Bu bizim həyat tərzimizdir.

44 günlük müharibədə gördük ki, Azərbaycanda olan xalqların hamısı müharibədə iştirak elədi. Bu müxtəliflik Azərbaycanın böyük gücüdür. Dünyada ən dağıdıcı model etnik qarşıdurma və dini qarşıdurmadır. Azərbaycan çox ağıllı yol seçərək, etnik mənsubiyyətlər və dini fərqliliklər arasında xoş münasibət yaradıb. O mənfur silahlar Azərbaycanda düşmənlərin arzu etdiyi qədər işləməyəcək.



**Qabil Hüseynli,**
politoloq

**- Hazırda Fransa kimi dövlətlərin Azərbaycana qarşı çıxışları, guya bu ölkədə xristian məbədlərinə diqqətin olmaması ilə ermənilərin qaldırdığı hay-küyün arxasında məkrli niyyət dayanır. Azərbaycan dövlətinin digər dinlərə, multikultural dəyərlərə münasibəti hər bir dinə aid olan məbədə qarşı sərgilənən xoş münasibətdə öz təzahürünü tapır.**

Ölkədə olan xristian məbədlərinin bir hissəsi rus-pravoslav kilsəsi, yerdə qalanlar isə Alban kilsələrdir. Ermənilər o abidələrin zahiri üslubunu dəyişərək öz adlarına çıxırlar. İndi həmin məbədlərin öz sahibləri olan udinlər və digər millətlərin nümayəndələri də bildirirlər ki, bunlar Alban kilsəsinin sərəncamında olan dini məbədlərdir. 1838-ci ildə ruslar Azərbaycan ərazisində olan bu Alban kilsələrini zorla erməni qriqorian kilsəsinin tabeliyinə verib.

Erməniyə də bu lazım idi. Ümumiyyətlə, bu bölgədə ermənilərin və onların qəyyumlarının uzağa gedən, həmin kilsələrin yerləşdiyi əraziləri də qəsb etmək kimi çox alçaq niyyətləri olub. İndi daşlar yerinə oturur. Şuşada təmir olunan kilsənin erməni qriqorian kilsəsinə heç bir aidiyyəti yoxdur. İndi Alban tayfalarının bir qolu olan udinlər öz kilsələrinə sahib çıxıblar. Azərbaycan dövləti Kəlbəcər rayonunun Vəng kəndindəki kilsəyə, Laçındakı Ağoğlan kilsəsinə də rəhbər təyin edib. Heydər Əliyev Fondunun dəstəyi ilə Qəbələ rayonu ərazisində Nic kəndindəki kilsəni bərpa ediblər. O kilsə çox böyük kilsədir və çox yaxşı təmir olunub. Yerli əhali, din xadimləri bundan razılıq edirlər. Bir təmir olunmamış kilsə qalıb, o da 1 nömrəli məktəbin yanındakı kilsədir. Həmin kilsə də ola bilsin, məktəbin özü də təmir edilsin. Alban xalqının dini ənənələrini yaşadan insanlara dövlət tərəfindən kömək göstərilməsi qərara alınıb. Azərbaycanın dini dəyərlərə göstərdiyi bu ehtiram bütün dünayaya mesajdır. Multikulturalizmin Azərbaycan modeli "Xarı bülbül Festivalı"nda özünü bir daha göstərdi. Heç bir ölkə Azərbaycan qədər ərazisində yaşayan kiçik xalqların folklor ansamblını, mədəniyyət nümunələrini bu qədər gözəl şəkildə ortaya çıxara bilməz. Monoetnik dövlət olan Ermənistanda yezidi kürdlərə və malakanlara bu cür qayğı göstərilirmi? Dini mədəni irsinə hüsn-rəğbətlə yanaşırlarmı? Əlbəttə ki, yox. Dünya buna diqqət etməlidir.

> *Multikulturalizmin Azərbaycan modeli Xarı bülbül Festivalında özünü bir daha göstərdi*

Azərbaycanda yaşayan digər xalqların, millətlərin I və II Qarabağ savaşında iştirak edərək böyük qəhrəmanlıq göstərdiyi hər kəsə məlumdur. O xalqlar bizimlədir. Yəhudi Aqarunov I Qarabağ savaşında qəhrəmancasına döyüşüb həlak oldu. İndi onun abidəsi Xətai rayonunun ən görkəmli guşəsində ucaldılıb. Eləcə də digər xalqların nümayəndələri öz vətənləri hesab etdikləri Azərbaycan üçün vuruşublar. Azərbaycan türkü ilə onları bağlayan qardaşlıq tellərini sübut ediblər.

***✍ Tahirə Qafarlı***

## Yaşanan tarix

# 18 may - Laçının silinən işğal tarixi

***XX** əsrin sonunda müstəqilliyimizin bərpasından sonra Azərbaycan Ordusunun ilk nizami alayının - 811 saylı Laçın alayının qurucusu və komandiri olmuş, ehtiyatda olan polkovnik Arif Paşa "Həftə içi"nə növbəti müsahibəsində bu gün - Laçın rayonunun əksər hissəsinin bir güllə atılmadan azad edilmiş olduğu bir dövrdən keçmişə - işğal günlərinə baxışlarından bəhs edib. Polkovnik eyni zamanda hazırda Ermənistanın bütün dünyaya car çəkdiyi Laçın rayonunun qəsbkar ölkə ilə sərhədindəki İşıqlıdağ- Qaragöl məsələsinin mahiyyətini açıqlayıb. Rusiya sülhməramlılarının vaxtından öncə, yəni 5 illik müddət tamamlanmamış Laçın "dəhlizi" və Yuxarı Qarabağdan çıxarılmasının mümkünlüyündən danışıb.*

***- Arif bəy, bir daha gözünüz aydın olsun. Artıq Laçının işğal tarixini əvvəlki illərdəki kimi böyük hüznlə qeyd etmirik. Çünki müzəffər ordumuzun son müzəffər savaşı sayəsində torpaqlarımızın, o cümlədən Laçın rayonunun əksər hissəsi birbaşa dövlətimizin, ordumuzun nəzarətinə keçib. Son 29 ildə baş vermiş olayların, o cümlədən 44 günlük müharibənin fonunda Laçının işğal səbəbləri haqqındakı fikirlərinizdə dəyişiklik olmayıb ki?***

- Xeyr, demək olar ki, eyni fikirdə qalıram. Bu saat bizim Laçının işğalı barədə fikirlərimizi fundamental şəkildə möhkəmlədən amillərdən biri də hazırda Yuxarı Qarabağ, Laçın dəhlizi və Ermənistanla sərhədlərdə gedən proseslərdir. Həmin proseslər onu göstərir ki, hazırda adını "sülhməramlı" qoymuş Rusiya hərbi kontingentinin ərazilərimizdəki real davranışları da buna sübutdur. O vaxt da mən deyirdim ki, ərazilərimizin işğalı Azərbaycanı Rusiyanın təsiri dairəsinə qaytarmağa çalışan qüvvələrin fəaliyyətinin nəticəsi idi. Bu gün həmin fikir bir daha təsdiqləndi. Təbii ki, burada digər faktorlar da var idi. Amma əsas səbəb bu idi. Hətta bu gün Azərbaycan dövlətinin gücləndiyi, ölkəmizin beynəlxalq müstəvidə müəyyən naliyyətlər əldə edərək konkret yerə malik olduğu, Türkiyənin dünya düzənində gücü və nüfuzunun artdığı bir şəraitdə də hamı Moskvaya bağlı "5-ci kalon"un mövcudluğunu və onun ölkəmizə kifayət qədər ciddi zərbələrini etiraf edir. Halbuki, 1991-1992-cı illərdə əhalinin böyük bir hissəsi "bəlkə də sovetləri qaytardılar" düşüncəsi ilə yaşayırdı və "5-ci kalon" Azərbaycanda müstəsna dərəcədə söz və səlahiyyət sahibi idi, Müdafiə Nazirliyimiz tamamilə Rusiya "QRU"-nun təsiri altında idi. Belə bir şəraitdə Laçını qoruyub saxlamanın özü nə qədər böyük fədakarlıq tələb edirdi. Hələ bu gün-30 ildən sonra Azərbaycanın iqtisadiyyatının, ordusunun gücləndiyi bir şəraitdə Laçın məsələsində nə qədər əngəllərlə qarşılaşdığımız da göz qabağındadır...

> *Laçının işğalınadək Qaragöl ətrafında postlarımız olub*

> *Rusiya hərbi kontingentinin Laçın "dəhlizi" və Yuxarı Qarabağdan vaxtından öncə çıxarılması üçün əlimizdə kifayət qədər əsas var...*

***- Bu didərginlik dövründə nə zamansa ağlınızdan keçirdimi ki, Laçın rayonunun əksər hissəsi bir güllə atılmadan azad oluna bilər?***

-Təbii ki, həmin 3 onillik ərzində içərimizdə böyük bir sıxıntı var idi. Amma mən daim keçmiş döyüşçü silahdaşlarıma, mediaya müsahibələrimdə də deyirdim ki, Laçının azad olunacağı günü əllərimin içi kimi görürəm. Eyni zamanda hələ neçə illər bundan öncə də demişdim ki, beynəlxalq şərait bizim xeyrimizə dəyişəndə biz, təbii ki, həmin torpaqların alınmasına nail olacağıq. Çünki bu, xalqın əzəli və əbədi torpağıdır və yad, düşmən kimsələrin əlində qala bilməz. Haqq gec-tez öz yerini tapmalıdır...

***- Yeri gəlmişkən, son günlər, demək olar ki, bütün super dövlətlər, beynəlxalq təşkilatlar səviyyəsində Azərbaycana qarşı bir basqı aləti kimi istifadə olunan Laçın rayonu ilə Ermənistan sərhədindəki İşıqlıdağ-Qaragöl məsələsi haqda sizin fikirləriniz oxucular üçün maraqlı olardı...***

- Bildiyiniz kimi, 1987-ci ildə Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə Qaragöl Dövlət Təbii qoruğu yaradılmışdı. Əgər Qaragöl Azərbaycanın deyildisə, o, necə yaradılmışdı. Bundan əlavə, o ərazidə İşıqlı dağ, Dəmirdaşdağ və Canqurtaran yüksəklikləri var. Bütün bu toponimlərin hamısı türk dilində, Azərbaycan türkcəsində olub. Bu, Çar Rusiyasının xəritələrində də belə olub. Və sərhəd xətti sovet dövründə hazırda bizim ordunun tutduğu mövqelərdən keçib. Sadəcə, ermənilər Kremlin himayəsindən və eyni zamanda bizlərin sadəlöhvlüyündən yararlanaraq müəyyən vasitələrlə sərhəd xəttini tədricən bizim ərazilərimizə doğru genişləndiriblər...



Arif Paşa,
Laçın alayının qurucusu və komandiri, ehtiyatda olan polkovnik

Laçının Malıbəy kəndində Ermənistanla sərhəddə "Ərəvis düzü" deyilən bir yer var idi. Hələ erməni ekstremizmi açıq şəkildə ayaqlanmamışdan öncə -1980-ci illərin ortalarında mən işimlə əlaqədar rayon mərkəzindən həmin əraziyə gedirdim. Bir dəfə sovxoz direktoru dedi ki, ermənilər hər əkin-biçin işi apararkən təsərrrüfatların arasında olan iri daşları hər dəfə bir traktor bıçağı enində Azərbaycan ərazisinə tərəf irəliləyirlər. Bunu eşidən kimi həmin daşları geriyə itələtdim. Oradakı sovxoz rəhbərləri və sakinlərə isə dedim ki, neçə dəfə erməni bu daşı itələyir, heç olmasa, bir dəfə də siz geri itələyin də, nədən qorxur, ehtiyat edirsiz?.. Yəni, təəssüf ki, sovet dövründə nəinki Laçında, bütün Azərbaycanda rəhbərlikdən ta kolxozçuya, fəhləyədək əksəriyyət bu erməni fitnəkarlığı qarşısında susurdu. Laçında ərazilərin, o cümlədən Qaragöl yaylağının Ermənistana verilməsi cəhdlərinə qarşı çəkinmədən, açıq mübarizə aparan bir neçə nəfər var idi. Onlardan ən fəalları rəhmətliklər - Qarıqışlaq kəndindən Çingiz Mehrəliyev, İbiş Əsgərov və Fazil Abışov idi. Sanki bu vətən, bu torpaq, Laçın, Qarabağ yalnız bu 3 nəfərin idi... Təəssüf ki, rayonun rəsmi strukturları Azərbaycan Mərkəzi Komitəsi və Moskva qarşısında məsələ qaldırmağa cürət etmirdilər. Çünki bu, ermənilərin xoşuna gəlməyən əməl olacaqdı. Ermənilərin xoşuna gəlməyən əməllər isə yuxarılar tərəfindən cəza motivi yaradırdı... Məhz belə laqeydlik, cəsarətsizlik sayəsində ermənilər nəinki Laçında, Qubadlıda, Zəngilanda, Kəlbəcərdə, Gədəbəydə, Qazaxda və s. də "dinc şəkildə" minlərlə hektar torpağımızı ələ keçirirdilər...




Bilirsiz, o dövrdə ermənilərdən fərqli olaraq Azərbaycan cəmiyyəti o dərəcədə sadəlöhvləşmişdi ki, belə proseslərə qarşı ümummili qınaq yox idi... 1980-ci illərin sonunda Laçında mərhum vətənpərvər müəllimimiz Kamal Cabbarovla birlikdə belə bir təşəbbüs irəli sürdük ki, gəlin, rayonun məktəbliləri üçün Qaragölə ekskursiyalar təşkil edək və uşaqlar, gənclər bilsin ki, bu ərazi bizimkidir. Və nəticədə ermənilər də əmin olsun ki, biz torpaqlarımıza sahib çıxırıq və geri çəkilsinlər. Təəssüf ki, nə aşağıdan, nə də yuxarılardan bu təşəbbüsə gerçək dəstək verən olmadı...

***- Laçının işğalınadək komandiri olduğunuz alayın Qaragöl, İşıqlıdağ ərazisində postları var idimi?***

- Bəli, təbii ki. Qaragöl 1991-1992-ci illərdə, Laçın işğal edilənədək tam şəkildə Azərbaycan ordusunun nəzarətində olub. Laçın alayı Laçın polisi ilə birlikdə rayonun Ermənistanla sərhəddi boyu bütün ərazilərdə postlar qurmuşdu. Qaragöl ətrafındakı yüksəkliklər də bizim əlimizdə olduğundan o dövrdə ermənilər gölə yaxınlaşmağa cürət etmirdilər. Onu da deyim ki, əslində Qaragölün guya yalnız 30 faizinin bizim olması haqda heç bir rəsmi sənəd yoxdur. Yəni sovet dövründə, 1992-ci ilədək bütün rəsmi xəritələrdə Qaragöl bütövlükdə Azərbaycanın olub. Odur ki, burada heç bir real mübahisəyə yer yoxdur. Ordumuz xəritələr üzrə tutduqları mövqelərdən geri çəkilməməlidir...

***- XX əsrin sonunda müstəqilliyimizin bərpasından sonra Azərbaycan ordusunun ilk nizami alayını yaratmış bir hərbçi kimi o dövrdən bu günədək Milli Ordumuzun inkişafını necə dəyərləndirirsiz?***

- Həmişə deyirəm ki, ordu haqqında danışanda ilk növbədə bizi ermənilərin də eşitdiyini, oxuduğunu düşünmək lazımdır. Odur ki, xırda nüansalrı nəzərə almasaq, demək lazımdır ki, xüsusən son 44 günlük savaşda Azərbaycan ordusu özünün nəyə qadir olduğunu göstərdi. Düzdür, təbii ki, bizə dəstək verən qardaş, müttəfiq dövlətlərin də köməyini heç vaxt unutmaq olmaz. Amma bütövlükdə döyüşən də, qalib gələn də Azərbaycan əsgəri oldu. Ümumiyyətlə, ordu idarəçiliyində müəyyən nöqsanlar olsa da, Azərbaycan əsgəri həmişə möhtəşəm olub, qəhrəman olub. Ordunun da özəyini Azərbaycan əsgəri təşkil edir. Və həmin qəhrəman əsgər özünü döyüşlərdə göstərdi. Şuşanın azadlığı kimi fenomenal bir döyüş əməliyyatı apardı bu əsgər... Və hamımız bununla qürur duymalıyıq. Hesab edirəm ki, Azərbaycan ordusu bu gün istənilən baxımdan, həm hərbi təchizat, həm təlim və döyüş qabiliyyəti baxımından çox güclü ordudur. Və Milli Ordumuz dünya hərb tarixində elə bir qələbəyə möhür vurdu ki, hər birimiz bunu daim təqdir və təbliğ etməyə borcluyuq...

***- Rusiya hərbi kontingentinin Azərbaycan torpaqlarına daxil olmasına əsas bəhanə ermənilərin Qarabağa gediş-gəlişini təmin edən Laçın "dəhlizi" adlanan ərazinin təhlükəsizliyinin təmin edilməsi oldu. Bundan sonra hələ 4 il yarım da ərazimizdə qalmalı olan Rusiyanın "sülhməramlı" deyilən hərbi birləşməsinin fəaliyyətinə necə qiymət verirsiz?***

- Çox pis. Mən Rusiya hərbi gücünə, Rusiya ordusuna heç vaxt "sülhməramlı" deyə bilmərəm. Çünki bu, daim imperialist bir təfəkkürə malik olan bir dövlətin ordusu olub və təəssüf ki, bu gün də elədir. Düzdü, həmişə onu da qeyd edirəm ki, belə baxışları bütövlükdə rus xalqına aid etmək olmaz. Çünki rus xalqı kifayət qədər nəcib və böyük ürəkli, xeyirxah bir xalqdır. Təəssüf ki. rus dövləti müstəmləkəsi etdiyi bütün xalqları kölə etməyə çalışıb və o cümlədən rus xalqının özünü də. Və nəticədə rus xalqına ona layiq olmayan bir imic qazandırıb. Ona görə də bu dövlətin ordusu da haraya ayaq basıbsa, orada daim qan, faciə olub. Bizlər də 1988-1990-cı illərdən, birinci Qarabağ savaşı illərindən Rusiya ordusunun mahiyyətinə yaxşı bələdik. Odur ki, Rusiya hərbi kontingentinin Laçın dəhlizi və Yuxarı Qarabağda yerləşməsini real olaraq "məxməri işğal" adlandırmaq olar. Yəni bu gün Azərbaycan ərazisində rəsmi sənədlərdə sülhməarmlı kimi görünən, amma praktiki əməllərdə bütün işğal faktorlarına malik bir hərbi birləşmə yerləşib. Bu səbəblərdən biz heç beş ilin tamamını gözləməyə də məcbur deyilik. Dünya artıq 90-cı illərdəki dünya deyil. Və əlimizdə Rusiya hərbi kontingentinin öz rəsmi missiyasından kənar davranışlarını sübut edən kifayət qədər fakt və əsaslar var. Bu da həmin yadelli hərbi birləşmənin Azərbaycan ərazisindən xaric edilməsinə əsas verir... Sadəcə, burada digər məsələlər var. Yəni beynəlxalq münasibətlər sistemindəki nüanslar...Odur ki, hələlik məsələyə bir az təmkinlə yanaşmaq gərəkdir...

***- Arif bəy, inşallah, Laçına ayaq basmaq sizə də nəsib olanda ilk olaraq hansı arzunuzu, xəyalınızı yerinə yetirəcəksiniz?***

- Təbii ki, öncə dədə-baba qəbirlərini, o cümlədən o torpaqlarda ikən şəhid olmuş dostlarımızın, silahdaşlarımızın məzarlarını ziyarət etmək fikrindəyəm. Uşaqlığımızın, gəncliyimizin keçdiyi təbii məkanları gəzib-dolaşmaq... Sonra isə o doğma yurd yerlərində özümüzə yeni evlər, ocaqlar qurmaq...

***✍ Sultan Laçın***



# Ermənilər Xudavəng kilsəsinə sadəcə ibadət üçün gəlir

## Mənəvi irs

***T**orpaqlarımız işğaldan azad olunduqdan sonra tez-tez bu ərazilərə müxtəlif dini icma nümayəndələrinin səfərləri təşkil edilir. Belə səfərlərin həyata keçirilməsində təşəbbüskar və dəstəkçi qurum isə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fondudur. Bəs görəsən, müxtəlif dini icmaların bölgəyə ziyarətləri zamanı hansısa çətinliklər yaşanırmı? Orada yaşayan ermənilər və rus sülhməramlılarının ziyarətçilərə olan münasibəti hansı formadadır? Hafta.az-ın əməkdaşı Mənəvi Dəyərlərin Təbliği Fondunun hazırki və gələcək fəaliyyəti, görülən işlərlə bağlı qurumun icraçı drektoru Mehman İsmayılovla həmsöhbət oldu. Həmin müsahibəni sizlərə təqdim edirik:*



**Mehman İsmayılov,**
Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı drektoru

***- Mehman bəy, azad olunmuş ərazilərimizdəki ibadətgahlara Alban-udi, pravoslav icmalarının və digər dinlərə mənsub şəxslərin mütəmadi surətdə səfərləri təşkil edilir. Ziyarətlər zamanı hansısa çətinliklərlə qarşılaşmısınız?***

- Ərazilərimiz işğaldan azad olunduqdan sonra bizim oradakı tarixi abidələrimizə - Alban irsinə məxsus olan məbədlərə dindarların səfərləri təşkil edilib. Bura ən çox səfər edən dini icma isə müstəqil Alban kilsəsinin indiki daşıyıcıları olan udilərdir. Xristianlığın digər qollarının da səfərləri olur, ancaq ən çox elə az öncə vurğuladığım kimi udilər gedir. Laçında Ağoğlana, Kəlbəcərdə Xudavəngə, Xocavənddə Tuğa və digər başqa azad olunan ərazilərimizdəki məbədlərə səfərlər təşkil olunub. Mənəvi Dəyərlərin Təbliği Fondu olaraq həmin icmaların, ora səfərlərini təşkilinə həm maddi, həm də başqa dəstəklər göstəririk. Doğrusu, bu günə qədər olduğumuz bütün yerlərdə çox yüksək səviyyədə qarşılanmışıq və heç bir maneə ilə rastlaşmamışıq. Təbii ki, səfərlərin hər biri Müdafiə Nazirliyinin maşınları ilə həyata keçirilib. Səfərlərimiz zamanı heç bir çətinliyə rast gəlməmişik.

Ümumiyyətlə, Kəlbəcərdə, Tuğda və digər məbədlərin olduğu ərazilərdə ermənilər yaşamır. Sadəcə Xudavəng kilsəsinə onların bir neçə nümayəndəsi ibadət üçün gəlib-gedir. Onun xaricində heç bir erməniyə rast gəlinmir. Bu məbədlərin hər biri əcdadlarımızın bizlərə mirasıdır. Onların daşıyıcıları - Azərbaycan vətəndaşı olan xristianlar həmin ibadətgahlarda dini ayinləri rahatlıqla yerinə yetirə bilirlər.

> *Azərbaycanın sahib çıxdığı bütün dəyərləri Ermənistan məhv etmək üçün əlindən gələn hər şeyi edib*

***- Fond tərəfindən azad olunmuş ərazilərimizdə milli-mənəvi irsin qorunması, onların təbliği baxımından hansı işlər görülür? Yəqin ki, dağıdılan abidələrin və erməni vəhşiliyinin dünyaya çatdırılması üçün beynəlxlq qurumlara müraciətlər də olunur.***

- Torpaqlar azad olunduqdan sonra cənab Prezident tərəfindən aidiyyəti orqanlara müxtəlif işləri yerinə yetirmək üçün tapşırıqlar verilib. Bu gün də onlar öz işlərini davam etdirirlər. Dini Qurumlarla iş Üzrə Dövlət Komitəsinin tabeliyində olan fond olduğumuz üçün işimiz dini icmalarladır. Bu istiqamətdə fəaliyyətlər artıq başlayıb. Kilsələr, məscidlər və digər ibadətgahlara təyinatlar yaxın gələcəkdə baş tutacaq. Bununla yanaşı Mənəvi Dəyərlərin Təbliği Fondu olaraq oradakı dağıdılan mənəvi irsimizi və erməni vandallığını dünyaya çatdırmaq üçün müxtəlif dillərdə videoçarxlar hazırlayıb, bir sıra beynəlxalq təşkilatlara göndəririk. Beynəlxalq ictimaiyyətə məsələni daha səhih çatdırmaq üşün kitablar nəşr edir, məqalələr hazırlayırıq. Bu istiqamətdə xüsusən də dini icmalarla birgə layihələr həyata keçiririk. Əsas missiyamız irsimizin tanıdılması və erməni vandallığının dünyaya çatdırılmasıdır.

***- Şuşada yerləşən Qazançı kilsəsinin təmir edilərək əvvəlki provaslav halına qaytarılması ilə bağlı nələri deyə bilərsiniz? Yəqin ki, bununla bağlı ermənilər tərəfindən aparılan antitəbliğatdan xəbəriniz olmamış olmaz. Mövzuya münasibətinizi öyrənmək istərdk...***

- Azərbaycanın fərqli bölgələrində İslam, xristian, yəhudi və digər dinlərə mənsub olan ibadətgahlar var. Bu bizim zəngin irsimiz və tolerantlığımızın göstəricisidir. Elə işğaldan azad olunan Şuşada yerləşən Qazançı kilsəsi də belə məbədlərimizdən biridir. Buranın fəaliyyəti, təmir-bərpası bölgədə görülən işlərin bir parçasıdır. Fondun yaradılmasında əsas məqsədlərdən biri də dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində maarifləndirmə işləri həyata keçirməkdir. Bu baxımdan torpaqlarımızı işğaldan azad etdikdən sonra ilk görülən işlərdən biri məhz Qazançı kilsəsinin təmiri məsələsi oldu. Bu dünyaya bir daha göstərdi ki Azərbaycan dünyavi dövlətdir. Bizdə bütün dinlərə münasibət eynidir. Bir məqamı xüsusi vurğulamaq istəyirəm, o torpaqlar uzun illər bizdə deyildi. Azad edilən zaman biz məscidlərə karikatura çəkilməsi, onların dağıdılması, eybəcər hala salınması hallarına şahid olduq. Azərbaycan öz yurduna qayıtdıqdan sonra dini ibadətgahlarda təmir başladı. İşğal müddətində məscidlərdə azan səsləri kəsilmişdi. İndi orada azan səsi bərpa olunub. Bununla yanaşı kilsə zəngləri də vurulur. Kilsə zəngi ilə azan səsi qarışır, ilahi bir ahəng yaranır. Bu bir daha bizim ermənilərlə müqayisə edilməyəcək qədər böyük xalq olduğumuza nümunədir.

***- Son olaraq YUNESKO nümayəndələrinin bölgəyə səfəri ilə bağlı sizin mövqeyinizİ öyrənmək istərdik. Bu gün YUNESKO erməni tərəfinin qaldırdığı məsələləri araşdırmaq istəyir, ancaq bizim dağıdılmış ərazilərimizə münasibət bildirmir. Hər iki tərəfdə monitorinq keçirilərsə, siz bu halı siz nə cür qiymətləndirirsiniz?***

- Torpaqlar işğaldan azad edildikdən qısa müddət sonra cənab Prezidentin ora səfərləri baş tutdu. Hər dəfə bölgəyə səfər edən prezidentin getdiyi yerlər heç də təsadüfi deyildi. O azad edilən torpaqlardakı dini və mədəni abidələrin önündən dünyaya səslənirdi. Bu həm də dünyaya bir mesajdır ki, bu abidələr Azərbaycanın ixtiyarında olduqda yüksək səviyyədə qorunurdu. Erməni işğalı müddətində dağıdılaraq eybəcər hala salınıb. Həmçinin Prezident tez-tez beynəlxalq təşkilatlara çağırışlar da edir. Onlardan biri də YUNESKO-dur. Bilirsiniz ki, II Dünya müharibəsi zamanı Avropada bir sıra abidələr, mədəniyyət mirasları dağıdıldı. Ardınca onların qorunması ilə bağlı müxtəlif konversiyalar yaradıldı. Müstəqillik qazandıqdan sonra həm Azərbaycan həm də Ermənistan mədəni irsin qorunması ilə bağlı konvensiyalara qoşulublar. Təəssüflər olsun ki, işğal müddətində qoşulduqları heç bir konvensiyanın tələblərinə əməl etmədilər. Əksinə, bu işlərin tərsini müşahidə etdik. İrs elə bir şeydir ki, tək bir xalqa aid deyil, ümumbəşəri dəyərdir. Hansısa bir coğrafi ərazidə yerləşməsi o xalqa aid olduğunu göstərmir. Bu, bütün bəşəriyyətin ortaq dəyərləridir. Azərbaycanın sahib çıxdığı bütün dəyərləri Ermənistan məhv etmək üçün əlindən gələn hər şeyi edib. Bu baxımdan da bizim alnımız tam açıqdır. İstənilən beynəlxalq təşkilat gəlib öz araşdırmalarını apara bilər.

***✍ Banu***

# Sevgi, yoxsa məntiq?!

## Layihə

**Mütəxəssislər hesab edirlər ki, ailədə ən vacib nöqtə "cütlük" ola bilməkdir**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

***Hər bir insan müəyyən yaş dövrünə çatdıqdan sonra öz yarını axtarır və onunla həyatını birləşdirmək istəyir. Təbii olaraq hər kəs xoşbəxt olmaq, hüzur içində yaşamaq ümidi ilə ailə qurur. Bu xoşbəxtlik hamıya qismət olmur. Kimisi bunu qismətə, kimisi də düzgün seçimə bağlayır. İnsanların bəziləri valideynin müdaxiləsi və seçimi ilə, bəziləri valideyn razılığı olmasa belə, öz sevdikləri insanla ailə qururlar. Müşahidələr göstərir ki, son yüz ildə təhsilli və işləyən qadınların sayının artması sevib-evlənmə hallarının da artmasına səbəb olub.***



İndi qızların çoxu əvvəlki kimi valideynlərin razılığı,uzaqdan görüb-bəyənmə ilə ərə getmir. Əksəriyyəti sevdikləri, könül verdikləri insanla həyatını birləşdirə bilir. Düzdür, ailə dolayı yolla da olsa seçimə müdaxilə edir, fikir bildirir. Belə ki, bizim cəmiyyətin valideynlərində adətən bu fikir formalaşıb: "Bir ömürboyu onunla sən bir yerdə yaşayacaqsan, qərar vermədən özün fikirləş". Yəni valideyn bütün məsuliyyəti övladının çiyninə yükləyir. Həmin ailə uğursuz olanda isə övlad seçimi yanlış etməkdə günahlandırılır.

Bu gün cəmiyyətimizdə zorla evləndirilən, hətta tanımadığı birisi ilə ailə həyatı qurmağa məcbur edilən gənclər də var. Əksər hallarda, bu hansısa vəzifəli və imkanlı bir şəxslə qohum olmaq, onun imkanlarından bəhrələnmək istəyən valideynlərin günahı ucbatından olur. Yəni, övladlarının xoşbəxtliyi üzərində özlərinə karyera qurmaq istəyən, rahat həyat yaşamaq istəyən valideynlər də az deyil. Etiraf edək ki, cəmiyyətimizdə maddi vəziyyətini düzəltmək üçün maddi imkanı yaxşı olan ailədən qız almaq arzusunda olan gənclər də az deyil. Aramızda elə insanlar var ki, evlənəndə sevgi, eşq, məhəbbət kimi məsələlərə görə evlənmir, sadəcə "evlənmək xatirinə" evlənirlər.

Bəzən "məntiq evliliyi" dediyimiz evliliklər də mümkündür. Bu zaman evlənənlər bir-birinin sosial vəziyyətinə, olduğu mövqeyə və yaxud da digər göstəricilərə görə evlənirlər. Bəzi kişilər də var ki, gələcək uşaqlarını yaxşı tərbiyə edə biləcək qadın axtarır, bəzi kişilər bir ömür boyu güvənəcəyi, sirdaş olacağı qadın axtarır, bəzi kişilər isə ömür boyu aşiq ola biləcəyi bir qadınla evlənmək istəyirlər. Yenə də yüzillərdir ki, insanlar bir suala cavab axtarır: ailənin uzun müddətli olması üçün sevib evlənmək lazımdır, yoxsa başqa məqamlar var? Bəzən sevərək qurulan ailələr də uğursuz olur. Mütəxəssislər bildirirlər ki, sağlam bir ailə həyatı yaşaya bilmək üçün ruh əkizimizi, yarımızı tapmağımız olduqca əhəmiyyətlidir. Gələcək həyat yoldaşımızla eyni şeylərdən zövq almasaq, oxşar zövqlərə sahib olmasaq, onda bu bizim ailə həyatımıza da təsir edəcək. Zamanla kiçik uyğunsuzluqlar böyüyəcək, ailədə narazılıqlar yaradacaq. Narazılıqlar isə getdikcə böyüyəcək, ailədaxili münaqişə yaradacaq. Doğru seçilməyən həyat yoldaşı ilə ən sonunda yolumuz məhkəmədə ayrılacaq.

Mütəxəssislər onu da vurğulayırlar ki, ilk növbədə sevgi münasibətləri ilə ailə münasibətlərinin çox fərqli olduğunu anlamaq lazımdır. Ailədə ən vacib nöqtə "cütlük" ola bilməkdir. Evlilik uzun və çətin bir yoldur. Bu yolda özünüzə həyat yoldaşı kimi seçdiyiniz insanın sizə yar olması, ailə yolunda əlinizi buraxmaması gözlənilən və arzu ediləndir. Təkcə sevgi ilə ailəni sağlam davam etdirmək əlbəttə ki, kifayət etmir. Sədaqət, hörmət, dəyər, qarşılıqlı fərdi yanaşma ailə üçün çox vacib amillərdir. Bu kombinasiyaların hamısı bir yerdə olduqda ailənin sağlam olması ehtimalı yüksəkdir. Buna görə də fərdlərin özlərini tanıması çox vacibdir, öz ehtiyac və istəklərini yaxşı bilməli və paylaşmalıdırlar. Tanışolma müddətində qarşı tərəfi itirmək və ya düzgün başa düşülməmək qorxusu olduğu üçün bu istəklər çox zaman gizlədilir. Ailə qurduqdan sonra cütlüklər təbii həyatlarına qayıtdıqda bu ehtiyac və istəklər ortaya çıxır, beləliklə də münaqişə başlayır. Evlilikdən əvvəl insanlar beyinlərində "ideal həyat yoldaşı" profilini təyin edib həmin insanı axtarırlar. Bu ideal həyat yoldaşı profilində çox yüksək gözləntilər ortaya çıxır. Qarşınızdakı insan da eyni gözləntilərlə yola çıxıb. Bunlar həqiqi olmayan və evlilikləri yoran gözləntilərdir. Məntiqi evlilik də ailə qurmaq üçün kifayət deyil. Gənclər özləri üçün bəzi kriteriyalar təyin edir: varlı olsun, diplomu olsun, yaraşıqlı olsun, romantik olsun və s. Evlilik düşünüldüyündən daha qarışıq bir müddətdir və evliliyin riyaziyyatı yoxdur. Beş kriteriyadan dördü olan insanla çox bədbəxt və ya beş kriteriyadan biri olan insanla çox xoşbəxt yaşamaq olar.



Elnur Rüstəmov, psixoloq

Sağlam evlilikdə sevgi olmalıdır. Bu zaman cütlüklər bir-birinə qarşı məsuliyyət daşıdıqlarının fərqində olurlar. Sevgi bir müddət keçdikdən sonra yerini daha davamlı və sağlam olan məhəbbətə verir. Evlilik bir səyahətdir. Bu səyahətdə fırtınalar da ola bilər, gözəl günlər də. Buna görə də münasibətdə həm də yaxşı işbirliyi qurmaq lazımdır. Yaxşı bir işbirliyinin qurulması üçünsə şəxsiyyət uyğunlaşması, evlilik bacarıqları və yetkin olmağı inkişaf etdirmək lazımdır, vacib olan "Biz" ola bilməkdir. Yəni hər iki fərdin öz fərdiliyini yaşaya bildiyi, eyni zamanda həyat yoldaşı olaraq məsuliyyətlərini yerinə yetirdiyi evliliklər sağlam formada davam edir. Vacib olan məntiq və ya sevgi üzərində deyil, həqiqi və sağlam evliliyə imza atmaqdır.

■ **Məsələyə münasibət bildirən psixoloq Elnur Rüstəmov hesab edir ki, uğurlu ailə üçün tərəflərin bir-birinə qarşı hansısa hissi olması şərtdir: "Gözəlliyə, sevgiyə istinad edib evlənmək heç də uğurlu seçim deyil. Gözəlliyin də bir müddəti var.** Tutaq ki, ən gözəl xanımla ailə qurdun, iki gündən sonra onun gözəlliyi yox, davranışı sənə daha çox təsir göstərəcək. Müəyyən məntiqi yanaşma da olmalıdır. İnsan nə üçün evləndiyini bilməlidir. Bu gün həm də psixoloji problemlərin miqyası artıb. Bunu da nəzərə almaq lazımdır. Tutaq ki, evlənməkdən qorxan insanlar, xanımlar var. Bunun içində evlənmək qorxusu, "azadlığım əlimdən alınacaq" düşüncəsi var, eləcə də oğlanlarda. Digər tərəfdən, kişinin qadın obrazında öz anasının, xanımın kişi obrazında isə atasının ştrixləri var. Tam olmasa da, müəyyən qismi var. Münasibət pis ola, yaxud hansısa mübahisələr yaşana bilər. Biz hər zaman tövsiyə edirik ki, o obrazı dağıtmayın. Kişi obrazı dağılmamalıdır, yoxsa qadının güvəni sarsılır. Qadın kiməsə güvənmək istəyir. Eyni zamanda da qadın kişidə qadın obrazını dağıtmamalıdı. Nəyə görə obraz deyirəm? Var sevgi obrazı, var sevginin özü. Mövlana deyir: mən səni yox, sənə olan yolu sevirəm. Sənə qədər olan yolu sevirəm, səni sevmirəm ki. Biz kimisə seviriksə, onun haqqında təsəvvürləri sevirik. Biz özümüzü inandırırıq ki, ən yaxşısı, ən gözəli odur. Sizə tərəf müqabilinizlə bağlı nə isə xoş olmayan bir nünas deyiləndə, "ola bilməz" deyirsiz. Niyə? Beyindəki obraz bunu qəbul etməyəcək. Sevərkən biz reallıqdan uzaqlaşırıq".

> *"Kişinin qadın obrazında öz anasının, xanımın kişi obrazında isə atasının ştrixləri var*

■ **Məsələyə münasibət bildirən psixoloq Aida Nəbiyeva isə hesab edir ki, münasibətlərin qarşılıqlı sevgi, anlaşma və qarşılıqlı inam əsnasında qurulmağının tərəfdarıdır:**

"Nəyə görə? Bu prinsiplərlə bu maneələri aşmaq olur. Böyük faizlə gənclərin fikirləri önəmlidir, valideynlərin isə məsləhətləri önəmlidir. Bəzən doğrudan da analar-atalar düşünür ki, bu insan filankəsin övladıdırsa, bu da onun kimi yaxşı övladdır, yaxşı insandır və yaxşı həyat yoldaşı olacaq. Amma bəzən genetik amil heç də üst-üstə düşmür və tamam əks bir göstərici olur. Biz dəfələrdə valideyn təəssüfünün belə şahidi olmuşuq. Ona görə də münasibətlərin qarşılıqlı sevgi, anlaşma və qarşılıqlı inam əsnasında qurulmağının tərəfdarıyam".

### Ekspert rəyi...

■ **"Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova isə bildirib ki, bəzən qızlar tamamilə tanımadığı, özündən yaşca çox böyük birisinə ərə getməyə məcbur edilir:**

"Bu zaman qızın və ya qadının arzusu, yaxud hər hansı etirazı nəzərə alınmır. İlkin dövrlərdə belə qızlar öz fantaziyalarında ərlərini reallıqda tanıdıqları oğlan obrazında görməyə çalışırlar. Ümumilikdə məcburi evliliklər qadına qarşı zorakılığa, təcavüzə də gətirib çıxara bilər və sonda boşanma ilə nəticələnər. Bütün hallarda məcburi evlilik insan haqları baxımından yolverilməzdir".

✍ ***Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## Layihə

***Son illər Azərbaycanda təhsilin maddi-texniki bazasının müasirləşdirilməsi istiqamətində çox böyük işlər görülüb. Azərbaycan Respublikası Prezidentinin diqqət və qayğısı nəticəsində, Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində respublikamızın bütün bölgələrində müasir tipli məktəb binaları inşa edilir, əsaslı təmir edilir və yenidən qurularaq şagirdlərin istifadəsinə verilir.***



# Təhsil infrastrukturunun yenilənməsi bəhrəsini verir

*Bugünədək bir milyondan çox şagirdin təlim şəraiti əhəmiyyətli şəkildə yaxşılaşdırılıb*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

İndiyədək həyata keçirilən məqsədyönlü, davamlı tədbirlər nəticəsində ölkəmizdə 3500-dən çox məktəb binası tikilib və ya əsaslı təmir edilib, nəticədə bir milyondan çox şagirdin təlim şəraiti əhəmiyyətli şəkildə yaxşılaşdırılıb. Eyni zamanda, ali məktəblər üçün yeni binalar, tədris kampusları inşa olunub.

Məktəblərin yeniləşməsi və zənginləşməsi prosesi bu gün də davamlı olaraq inkişaf edir. Son bir ildə bu sahədə aparılan işlər isə bir daha sübut edir ki, məktəblərin yeniləşməsi dövlət siyasətinin mühüm istiqamətlərindən birini təşkil edir. Dünyanı bürümüş pandemiya və onun ağır fəsadlarına baxmayaraq, ölkə Prezidenti son aylarda da təhsil sisteminə diqqət və qayğısının bariz nümunəsi kimi paytaxt Bakı ilə yanaşı, regionlarda məktəb infrastrukturunun yaxşılaşdırılması ilə bağlı bir sıra sərəncamlar imzalayıb.Yeri gəlmişkən, bu yaxınlarda Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Qəbələ rayonuna səfər zamanı rayonun Nic qəsəbəsində 1 saylı orta məktəbə də baş çəkiblər. Dövlət başçısı əsası 1857-ci ildə qoyulmuş və hazırda 130-a yaxın şagirdin təhsil aldığı məktəblə tanışlıqdan sonra həmin ərazidə yeni məktəbin tikintisi ilə bağlı qərar qəbul edib. Təbii ki, Nic qəsəbəsində yeni məktəbin tikintisi ilə bağlı dövlət başçısının yerindəcə qərar qəbul etməsi bir daha dövlətin təhsilin inkişafına diqqət və qayğısının bariz nümunəsidir. Məktəb infrastrukturunun yenilənməsi sahəsində Heydər Əliyev Fondunun xidmətləri də əvəzsizdir. Fondun təşəbbüsü ilə Bakıda və regionlarda yeni məktəblər, uşaq bağçaları, uşaq evləri, internat məktəbi binaları tikilib istifadəyə verilib, əsaslı təmir və bərpa olunmuş, müasir avadanlıqlarla təchiz edilib.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi milli təhsil tariximizin müstəsna səhifəsidir. Bu layihə milyonlarla vətəndaşımızı, övladlarımızı yaşadıqları məkanda hər növ şəraitə malik, yeni, işıqlı, müasir məktəblərdə təhsil almaq arzusuna qovuşdurdu. Həm də təhsili cəmiyyətimiz üçün yeni bir dəyərə çevirdi. Gənc nəslin keyfiyyətli təhsil almaq, uğurlu karyera qurmaq, cəmiyyətə fayda vermək arzusunun gerşəkləşməsinə imkan yaratdı. Məlumat üçün bildirək ki, pandemiya şəraitinə və onun ağır fəsadlarına baxmayaraq təkcə 2020-ci ildə Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə ölkəmizdə 62 təhsil müəssisəsi inşa və əsaslı təmir olunaraq müəllim və şagirdlərin ixtiyarına verilib. 2020-ci ildə Təhsil Nazirliyi tərəfindən 94 təhsil müəssisəsi tikilib və əsaslı təmir edilib. Onlardan 27-də tikinti, bərpa-gücləndirmə, 7-də əsaslı təmir işləri görülüb, 60 modul tipli məktəb quraşdırılıb.

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən Təhsil Nazirliyi yanında İctimai Şuranın sədr müavini, təhsil eksperti Nadir İsrafilov bildirib ki, təhsilin maddi-texniki bazasının müasirləşdirilməsi ölkədə prioritet məsələlərdəndir:** "Məktəblərin tikintisi, təmir və təchizatı son 20 ildən artıqdır ki, ölkədə prioritet olaraq qalmaqdadır. Ölkə başçısının dediyi kimi əsas məqsəd ondan ibarətdir ki, Azərbaycanda bir dənə də olsun qəzalı vəziyyətdə məktəb qalmasın. Bax, qarşıya belə məqsəd qoyulub. Əbəs yerə deyil ki, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda da qeyd edildiyi kimi son illərdə ölkədə təhsilin inkişafı istiqamətində mühüm addımlar atılmış, təhsilin normativ hüquqi bazası təkmilləşdirilmiş, maddi-texniki təminatı istiqamətində Azərbaycan Respublikası Prezidentinin sərəncamları əsasında geniş tədbirlər həyata keçirilmişdir. Həyata keçirilən dövlət proqramları çərçivəsində təhsil təyinatlı yeni binalar inşa edilmiş, ümumi təhsil müəssisələrinin binaları əsaslı təmir olunmuşdur. Strateji hədəflərdən biri də müasir tələblərə cavab verən və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılması, təhsilə adekvat həcmdə maliyyə resurslarının cəlb edilməsi, təhsilin maliyyələşdirilməsi xərclərinin Ümumi Daxili Məhsula nisbətinin mərhələlərlə 5-6 faizə çatdırılması, nəticəyönlü büdcə planlaşdırılması və müxtəlif mənbəli maliyyələşdirmə mexanizmlərinin yaradılması, təhsil şəbəkəsində rasionallaşdırma tədbirləri həyata keçirməklə, regionlar arasında təhsilin keyfiyyətini bərabərləşdirmək üçün ucqar regionlarda yerləşən təhsil müəssisələri üçün əlavə maliyyələşmənin təmin olunmasıdır.Təkzibolunmaz faktdır ki, ölkənin şəhər və kəndlərində təkcə son 10 il ərzində 3500-ə yaxın məktəb binası tikilərək istifadəyə verilib. Məktəbəqədər təhsil müəssisələrinin tikilməsi və yenilənməsi istiqamətində də işlər görülüb. Yeni təhsil müəssisələrinin tikintisi zamanı daha çox müasir təhsil standartlarına uyğunluq nəzərə alınıb. Yeni təhsil müəssisələrinin tikintisi, mövcud məktəblər üçün əlavə korpusların inşası, əsaslı təmiri, müasir avadanlıqla, laboratoriyalarla təminatı nəticəsində iki və üçnövbəli məktəblərin sayı xeyli azalıb. Müstəqillikdən sonra aparılan islahatlar nəticəsində Azərbaycanın elə regionu yoxdur ki, orada yeni məktəb binaları tikilməsin, yaxud mövcud məktəblər təmir edilməsin.

Qəzalı vəziyyətdə olan məktəblərin modul tipli məktəblərlə əvəz edilməsi istiqamətində də xeyli işlər görülüb. Eyni zamanda, Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsinin əsas məqsədi də təhsil sahəsində mövcud olan problemlərin həllinə kömək etmək, ölkə miqyasında müasir standartlara cavab verən təhsil kompleksləri yaratmaq, tədrisin səviyyəsinə bilavasitə təsir edən problemləri aradan qaldırmaq, cəmiyyətin müxtəlif təbəqələrinin, yerli və xarici şirkətlərin, beynəlxalq təşkilatların bu sahədə birgə əməkdaşlıq imkanlarını müəyyənləşdirərək ümumi işin xeyrinə yönəltməkdir".

### Yeri gəlmişkən...

■ **Bu gün bölgələrdə, xüsusilə ucqar kəndlərdə illərdir təmir olunmayan qəzalı məktəblər modul tipli məktəblərlə əvəzlənir.**

Şagird sayına uyğun sinif otaqları, kitabxanası, sanitar qovşağı olan modul tipli məktəblər istənilən vaxt başqa əraziyə köçürülə və ya genişləndirilə bilər. Modul tipli məktəblərin bir üstünlüyü də quraşdırılmasına az maliyyə vəsaiti sərf edilməsidir. Bir ənənəvi məktəbin inşası üçün lazım olan vəsaitlə 10-na yaxın modul tipli məktəb quraşdırmaq olar. Modul tipli məktəblərin yaradılmasının üstünlüyü onların azməsrəfli olması ilə yanaşı, qısa müddət (1 ay) ərzində istənilən relyefdə quraşdırılması, asan daşınması, burada sinif otaqlarının sayının şagirdlərin sayına uyğun olaraq rahatlıqla azaldılıb-artırılmasıdır. Modul tipli məktəblərin digər üstünlüyü budur ki, qəzalı vəziyyətdə olan təhsil müəssisələrində təmir-tikinti işləri aparılarkən, tədris prosesi dayandırılmır. Bu günədək quraşdırılan modul tipli məktəblər sayəsində azkomplektli və qəzalı vəziyyətdə olan kənd məktəblərinin problemi həll edilib. Modul tipli məktəblər əsasən Quba, Xaçmaz, Şabran, Qusar, Siyəzən, Xızı, İsmayıllı, Ağsu, İmişli, Qobustan, Şamaxı, Oğuz, Şəki, Qəbələ, Tovuz, Ağstafa, Gədəbəy, Daşkəsən, Ağdaş, Bərdə, Ağcabədi, Ağdam, Zərdab, Saatlı, Beyləqan, Cəlilabad, Masallı, Yardımlı, Lənkəran və Lerik rayonlarının ərazilərində quraşdırılıb. Məktəb quraşdırılarkən ərazinin coğrafi relyefi mütləq nəzərə alınır. Kəndin relyefi kifayət qədər nahamardır və burada modul tipli məktəbin tikintisi daha məqsədə uyğun hesab olunub. Məktəblərin tikintisində yerli materiallardan istifadə edilir. Modul tipli məktəblərdə sinif otaqlarının sayını şagirdlərin sayına uyğun olaraq rahatlıqla azaldılıb-artırmaq mümkündür. Bu məktəblərin digər üstünlüyü budur ki, istilik itkisi digərlərindən iki dəfə azdır, rütubətlilik yoxdur. Belə məktəblərin daxilində və xaricində istifadə olunan materiallarda insan sağlamlığı üçün heç bir ziyanlı maddə yoxdur, yanğına, sukeçirməyə, nəmlənməyə, çürüməyə, isti və soyuğa qarşı daha dayanaqlıdır. Bu cür məktəblərin tikintisində məqsəd keyfiyyətli təhsilin, müasir təhsil infrastrukturunun hər bir Azərbaycan vətəndaşı üçün əlçatan olmasıdır. Yaxınlığından, uzaqlığından, coğrafi şəraitindən asılı olmayaraq, hər bir insan üçün yüksək təhsil imkanının yaradılmasıdır.

✍ ***Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# “Şuşada 300-dən çox abidəni qeydiyyata almışıq”

## Şuşa

**Azərbaycan Ordusu 2020-ci il noyabrın 8-də tarixi ədaləti bərpa etdi. Şuşa şəhəri işğaldan azad olundu. Bu gün Şuşanın tarixi-mədəni irsi, ruhu yenidən özünə qayıdır, bərpa olunur. Şuşaya qayıdış xalqın, şuşalıların özünə, milli irsinə qayıdışı, yenidən güclənməsi, inkişaf etməsi deməkdir. Bu istiqamətdə “Həftə içi”nə müsahibə verən Şuşa Mədəniyyət və Turizm İdarəsinin müdiri Zahid Abbasov maraqlı fikirlər söyləyib.**



**Zahid Abbasov,**
Şuşa Mədəniyyət və Turizm İdarəsinin müdiri

***- Zahid müəllim, cənab Prezidentin sərəncamı ilə Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilib. Bu, Şuşanın tarixi-memarlıq abidələrinin bərpası, dünyaya təqdim edilməsi baxımından hansı əhəmiyyəti daşıyır?***

- Şuşa tarixən həm Zaqafqaziyanın kiçik konservatoriyası adını alıb, həm də tarixi abidələr şəhəri olub. Bu şəhərin memarı Kərbəlayi Sərxan Qarabari çox məşhur bir memar olub.

O, şəhəri salanda elə bir tarixi arxitektura, memarlıq abidəsi yaradıb ki, dünyanın heç bir yerində belə memarlq ansamblı yoxdur. Şuşada 17 məhəllənin özünəuyğun gözəlliyi var. Orada Hamam məhəlləsi, Təndirli məhəllə, Məscidli məhəllə və başqa məhəllələr olmaqla, özünün özəlliyi, gözəlliyi ilə seçilir. Vaxtilə Pənahəli xan öz dövründə Şuşada 8 məhəllə saldırmışdı, onun oğlu İbrahim Xəlil xan taxta gələndən sonra 9 məhəllə də o saldırdı. Həmin məhəllələr sovet dövrünədək bir neçə dəfə dağıdıldı, düzəldi, qorundu.

Məlumdur ki, Şuşa XIX əsrdə 4 dəfə təpədəndırnağadək yağı düşmənlər tərəfindən yandırılıb, dağıdılıb. 1905-ci ildə bir dəfə dağıdılıb, 1918-1923-cü illərdə bir dəfə, 1948-ci ildə bir dəfə və 1992-ci ildə şahidi olduğumuz dağıntılar baş verib. Mənim kiçik yaşlarım Şuşada uçuq evlərin içində dava-dava oynamaqla keçib. 1960-1970-ci illərdə hər məhəllədə o qədər uçuq, yanmış evlər var idi ki, insanlar imkan tapıb o dağıntıları təmir edə bilmirdilər. Təsəvvür edin ki, 1903-cü ildə Şuşada 85 min azərbaycanlı əhali yaşayırdı. 1992-cü ildə çoxları oradan pərən-pərən düşdü, nəsillər dağıldı. Danmaq olmaz ki, Ulu Öndər hakimiyyətə gələndən sonra, 1969-cu ildə Şuşaya, Qarabağa diqqətini çox artırdı. Buna misal olaraq, 1970-ci illərdə Şuşada “Kurort kompleksinin inkişafı haqqında” Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin bürosunun qərarını göstərə bilərik. Bu qərardan sonra Şuşa, sanki bir tikinti meydançasına çevrildi. Həmin dediyim yanan, dağıdılan uçuq evlər, uçmuş qala divarlarının hamısı təmir olundu, sanatoriyalar tikildi, həm turizm inkişaf elədi, həm qədim tarixi abidələr təmir olundu. Eləcə də tanınmış yazıçı, dramaturq, bəstəkarların ev-muzeyləri yaradıldı. O vaxt Üzeyir Hacıbəyovun, Bülbülün, Mir Mövsüm Nəvvabın ev-muzeyləri yaradıldı. Molla Pənah Vaqifin məqbərəsi tikildi. Beləliklə, həmin tarixi abidələrin 90 faizi, demək olar ki, təmir olundu. Ona görə də o qərardan 2 il sonra, 1977-ci ildə Şuşa Tarixi Memarlıq Qoruğu elan olundu. Qala divarları hər 15-20 metrdən bir dağıdılmışdı. Onların hamısı təzədən bir-bir restovrasiya olundu, birləşdirildi.

> “
>
> *Şəhərin qayalıq üstündə olan ərazisində 17 məhəllədən artıq məhəllə salmaq qeyri-mümkündür*

Deyim ki, Qala divarları şəhər ərazisinin 4-də 1-i qədərdir. O yerdə ki, qayalıqdır və oradan Şuşa şəhərinə girmək olmaz, orada divar yoxdur. O yerdə ki, şəhərə girmək ehtimalı var, orada qala divarları qurulub. Qala divarı sizə adi gəlməsin. Hündürlüyü 8 metr, eni 2 metrə yaxın, 180, 170 sm idi. Yəni sərhədçilər qala divarının üstündə at ilə gəzirdilər. Mən özüm o qala divarının üstündə o qədər gəzmişəm ki. Həmin qala divarı bizim üçün kəsə yol idi. Onun divarının üstü ilə Daşaltıya çimməyə enirdik, böyürtkən yığmağa, gəzməyə gedirdik... Oradan yol kəsə olurdu. Orada qayalıqlarla “40 pilləkən”, “Pişik yolu”, “İki gözlük” deyilən yerlərə keçirdik. Bax, bizim bu əsgərlər də o “40 pilləkən”, “İki gözlük” deyilən həmin o yollardan, həmin o qayalardan gəlib şəhəri azad etdilər.

***- Hazırda Şuşa şəhərində aparılan quruculuq işləri hansı mərhələdədir? Belə fikirlər var ki, bərpa, yenilənmə zamanı Şuşada 17 məhəlləyə yeniləri əlavə olunacaq, məhəllələr artırıla bilər. Bu barədə nə deyərdiniz?***

- Belə olmayacaq. Şuşada abidələrin qeydiyyatını aparan komissiyanın tərkibində olan adamam. Bu gün hansı abidələri qeyd eləmişik, onların təmiri ilə bağlı müzakirələrdə bir yerli adam kimi iştirak edirəm. Düşünürəm ki, Şuşada çox böyük yeniliklər olacaq. Yeni məhəllələrin yaranması ilə bağlı elə bir ehtimalı mümkün hesab etmirəm, çünki məhəllələri artırmaq mümkün deyil. Artırmaq üçün onda şəhərin ərazisindən çölə çıxmaq lazımdır. Yəni şəhərin qayalıq üstündə olan ərazisində 17 məhəllədən artıq məhəllə salmaq qeyri-mümkündür. Həmin o 17 məhəllə qalacaq. Bu məhəllələrin yaxın kəndlərdə qurulmasını düşünürlərsə, bunlar çox aralıdır. Şəhərə yaxın kənd yoxdur, bir dənə Daşaltıdır, o da adı bəlli - Daşaltıdır. Qaladan çox aralıdır.

***- İndi ermənilər Şuşada aparılan bərpa işləri zamanı guya erməni kilsəsinin dağıdılması ilə bağlı hay-küy salırlar.***

- Bir faktı deyim, məsələn, ömürboyu Şuşada erməni olmayıb və “erməni kilsəsi” deyilən bir yer də yoxdur. Bu sözü ermənilər özlərindən uydurublar. Ermənilərin ətrafında hay-küy yaratmaq istədikləri kilsə, “Kazançı” deyirdilər ona, “Qazançı” kilsəsi olub. Onun görkəmi, memarlıq üslubu da tamam başqa olub. Ermənilər o kilsəni saxtalaşdıraraq öz adlarına çıxmağa çalışıblar.

İndi Qazançı kilsəsi bərpa olunub, əvvəlki görkəminə salınacaq. O kilsənin üzərində xaç olmayıb. Həmin xaçı sonradan ermənilər qoyublar. Yəni kilsə bərpa olunur, bu bizim sivil xalq olduğumuzu göstərir, amma öz qədim, tarixi görkəmi nəzərə alınmaqla bərpa olunur. Daha bunların yalandan kilsəni saxtalaşdırıb, üstünə xaç qoyması ilə yox. Həmin kilsədə xaç yoxdur, piramida yoxdur, götürülüb. Onu da qeyd edim ki, kilsənin ən köhnə vaxtının şəklini də tapıb təqdim eləmişəm. Mənə də rəhmətlik Firudin Şuşinski vermişdi.

***- Şuşada olan abidələrin sovet dövrü qeydiyyatı zamanı müəyyən mübahisəli halların olduğu deyilir. Deyilir ki, düşünülmüş şəkildə bütün abidələrin hamısı qeydiyyata alınmayıb. Hazırda abidələrin qeydiyyatı istiqamətdə aparılan işlərlə bağlı nələri söylərdiniz?***

- Bu barədə çox çıxışlar etmişəm. Sovet dövründə abidələrin qorunması ilə bağlı idarə təzə yaranmışdı. 1980-ci ilə qədər elə bir idarə yox idi ki, abidələri qeydiyyata alsınlar. 10 il ərzində dövlət tərəfindən 248 abidə qeydiyyata alınmışdı. Həmişə demişəm, indi də deyirəm ki, Şuşada 700-dən də çox abidə var. Məsələn, adi bir misal çəkim; adi asfaltdan yollar çəkilmirdi, pəncərələrin kənarının haşiyələri adi kərpicdən və yaxud başqa adi daşdan, sementdən olmurdu. Onların hamısı sırf qaya daşlarından yonulub vurulurdu. Ona görə də həmişə deyirəm ki, Şuşanın hər bir daşı tarixi abidədir. O daşları aylarla, illərlə işləyib, cilalayıb qoyublar yerinə. Yadımdadır, 1970-ci illərdə Şuşada bur karvansara var idi, birmərtəbəli olsa da, o qədər gözəl daşlarla işlənmişdi ki... 200 metrlikdən adamı cəlb edirdi, deyirdi ki, mən müsəlman abidəsiyəm. Keçmişdə ayparalı, butalı və milli, dini irsə nə uyğundursa, həmin naxışları qoyurmuşlar. Bilirmişlər ki, bu gün belə məsələlər qalxa bilər. Elə düzəldirdilər ki, mübahisəsiz onun müsəlman, türkə aid olan tarixi abidə olduğu bilinirdi. Heç kəs buna şərik çıxıb deyə bilməzdi ki, mənimdir.

...1970-ci illərdə karvansaranı sökəndə, yadımdadır ki, başladılar üstünə nömrə qoymağa. Daşların üstünə kömürdən nömrələr yazmışdılar. Mən uşaq idim, hər gün oradan keçibgələndə anama sual verirdim ki, daşları niyə belə nömrəliyiblər? O da deyirdi ki, yəqin, sonra haradasa quraşdıracaqlar, bunu məhv eləmək olmaz. Karvansaranı, bir də Şuşada “dom otdıx” adlanan bina mövcuddur, onun möhtəşəm darvazası var idi. Söhbət darvazadan getmir, onun necə arxalı düzəldilməsindən gedir. Həmin oradakı daşları da nömrələyib sökdülər. Dedilər ki, bunu başqa yerdə quraşdıracaqlar. Həmin daşlar yoxa çıxdı, heç yanda quraşdırmadılar. Karvansaradan da əsər-əlamət qalmadı. Dağıdılan abidələrin yerini bilirik. Məsələn, dəqiq bilirdim, “Qurdlar məscidi”, “Əli Yusifli” haradadır... Gedirəm ora, ayağımı qoyuram o torpağa ki, burada filan məscid olub. Hamısını yerlə-yeksan ediblər. O dağıdılan məscidlərin və yaxud başqa abilərin şəkillərinin hamısı məndə var. Güldəstəli məscidlər var idi, onun güldəstəsini söküblər. Şuşada 3 məscid minarəli olub. Aşağı, Yuxarı Gövhər ağa məscidləri, bir də Saatlı məscidi. Qalanları Güldəstəli məscidlər olub. Güldəstəli məsciddə ortadan dəmirdən balkon kimi bir kürsü düzəldib, çıxıb oradan azan verirmişlər. Güldəstəli məscidlərdən hansını ki, uçurmayıblar, ondan özləri istifadə ediblər. Onların güldəstəsini yerli-dibli məhv ediblər, olub yaşayış binası.

***- Dediniz ki, Şuşada 700-dən daha çox abidə olub. İndi onların təkrar qeydiyyatı aparılıb, bərpası nəzərdə tutulurmu?***

- Abidələri düşündüyüm kimi qeydiyyata almaq çox çətin məsələdir. Abidələri elə- belə qeydiyyata almırlar, araşdırılır, əsaslanır, ölçülüb-biçilir, pasportlanır, nömrələnir, ondan sonra olur tarixi abidə. Bütün bunların hamısı yavaş-yavaş olacaq. Abidələrin 70 faizi dağıdılıb gedib, amma 300-dən çox abidəni qediyyata alıb təqdim eləmişik. Bu saat onların üzərində işlər gedir. Tamamilə dağıdılan abidələrin aqibətinə gəlincə, onların qeydiyyata alınması, yenidən bərpası üçün vaxt lazım olacaq.

***- Molla Pənah Vaqifin məqbərəsi nə dərəcədə bərpa olunub? Ümumiyyətlə, Şuşada olan məşhur 17 məhəllənin yenidən tikilməsi və abidələrin bərpasından başqa daha hansı layihələr işlənir?***

- Məqbərə artıq hazırdır, təhvil verilib. Məqbərənin indiki görkəmi əvvəlkindən də gözəldir. İstifadə olunan materiallar daha müasir standartlara cavab verir. Abidələrin bərpası ilə yanaşı, şəhərin yeni görkəminin daha gözəl olması üçün də yeni layihələr üzərində işlənir. Çox güman, layihələrin tam hazır olması iyulun ortalarına qədər çəkəcək.

***- Bir çox memarlar bərpa işlərində iştirak etmək üçün müsabiqələrin keçirilməməsindən narahatdır. Hansı müsabiqələr keçirilir, yaxud bərpa işlərində kimlər işləyir?***

- Şəhərin qurulması üçün yeni layihələr lazım deyil. Şuşa köhnə şəhərdir və onun köhnə görkəmi necə varsa, elə də qalacaq. Bərpa zamanı, sadəcə, müasir materillardan istifadə olunacaq. Ola bilməz ki, kimsə başqa bir ideya fikirlərşib, hansısa abidəyə nəsə əlavə bir buynuz vursun. Necə var, elə də olacaq. Ona görə bunun üçün hansısa müsabiqə keçirməyə ehtiyac yoxdur. Ola bilər ki, o abidələrin, binaların düzəldilməsində, tikintisində hansısa şirkətlər tender yolu ilə iştirak etsinlər. O da sonranın işidir. Layihələnmədə hələ milli kolorit və qədimliyini özündə saxlayan naxışlar işlənməlidir. Yəqin ki, belə də olacaq.

***- Zahid müəllim, İsa bulağı necədir?***

- İsa bulağı axır, yaxşıdır, gözəldir. Toxuna bilmədikləri bir dənə yer İsa bulağıdır. Bu yaxınlarda eşitmişəm ki, guya hansısa erməni götürüb bulağın ora-burasını düzəldib, guya xərc çəkib. Həmin erməni sifariş də göndərib ki, müsəlmançılığı qəbul eləməyə hazıram, məni qaytarın... Təbii ki, bu da erməni cəfəngiyatıdır.

***- “Xruşşovka” evlərin sökülməsi prosesindən danışılırdı. “Xruşşovka”ların sökülməsi nə yerdə qalır? Sökülərsə, şəhərin görünüşünə hansı görkəmi verəcək?***

- “Xruşşovka”lar mütləq sökülməlidir. Bəziləri sökülüb, bəziləri isə hələ də qalır, amma mütləq sökülməlidir. Əvvəla, o evlərin müddəti keçib. İkinci tərəfdən, onlar şəhərin görkəminə çox pis təsir edir. Şuşalıların dədə-baba həyət evlərini heç kəs sökmür, əksinə, təmir olunurlar. Elə evlər sökülüb ki, müharibə zamanı zərər görüb. Onun yerində daha qəşəngi tikilib veriləcək insanlara.

***- Şuşanı Azərbaycanın turizm şəhəri və dünyanın mədəniyyət incisi kimi dünyaya təqdim etmək, tanıtmaq üçün hansı işləri görmək lazımdır?***

- Bunun üçün vaxt lazımdır. Turizm üçün təkcə gözəl, yaraşıqlı binalar tikmək kifayət deyil. Turizm üçün gözəl şərait, məkan, hava, su, daş, qaya, meşə, hamısı var. Qalır onları bir qədər ütüləyib dünyaya təqdim etmək. İnşAllah onu da yavaş-yavaş həyata keçirəcəyik...

✍ *Tahirə Qafarlı*

***Azərbaycanın tarixi şəhərlərindən olan Şuşa işğaldan azad olunandan sonra bərpa edilir. Şuşada yeni məscid də inşa olunacaq. Məscidin layihələndirilməsi işinin italiyan memara tapşırıldığı iddia edilir. Tarixi şəhərdə tikilən yeni məscidin hansı memarlıq üslubunda inşa ediləcəyi və şəhərə nə kimi gözəllik qata biləcəyi maraqla gözlənilir. Bu mövzuda “Həftə içi”nə müsahibə verən memar, professor Elçin Əliyev maraqlı fikirlərə diqqət çəkib.***



**Elçin Əliyev,**
memar, professor

# İtaliyalı memarın Şuşada yeni məscid layihəsi...

***- Elçin müəllim, müasir üslübda tikiləcək Şuşa məscidinin tikintisi şəhərin memarlıq üslubuna necə uyğunlaşdırılmalıdır?***

- Tarixi şəhərlərdə qədim tarixin və müasir memarlığın yanbayan olması normaldır. Bu, dünyanın bütün şəhərlərində var. Məsələn, mən İçərişəhərdə müasir binaların tikintisinin əleyhinə deyiləm. Bu normal prosesdir. Ona görə də Şuşada tikilən yeni məscidin müasir dövrün tələblərinə əsasən inşasına müsbət baxıram. Belə memarlıq ölkənin inkişafının əksidir. Biz dünyaya göstərməliyik ki, gözəl müasir memarlıq əsərlərimiz var və bu da inkişafın əksidir.

Bilirik ki, Şuşada ayrı dinlərin memarlıq abidələri də yer alır ki, ən görkəmli yerlərdə dayanırlar. Ona görə də bir azərbaycanlı kimi borcluyuq ki, ən gözəl yerlərdə mədəniyyətimizi əks etdirən ən yaxşı memarlıq abidələri inşa edək. XXI əsrdə durub qədim üslubda məscid tikmək düzgün olmaz. Ona görə də Şuşada yeni bir məscidin tikilməsi müasir standartları əhatə etməklə yanaşı, əminəm ki, şəhərin də landşaftına uyğun düzgün yerdə otuzdurulacaq. Dəfələrlə Qarabağda olmuşam və görmüşəm ki, onlarca məscid, kilsə dağların ətəyində tikilib və çox gözəl görünür. Yeni məscidin Şuşanın landşaftına uyğunlaşdırılması məsələsində bir problem görmürəm.

***- Şuşada yeni məscidin italyan memara tapşırıldığı bildirilir...***

- İstəyimizdən asılı olmayaraq, müasir memarlıq tarixi Bakıya, Şuşaya və digər şəhərlərə də gəlir. Yeni memarlıq mühitə daxil olur və təbii ki, qədim memarlığın yanında yeni memarlıq dayanır. Biz bu prosesin qarşısını ala bilmərik. Söhbət yeni memarlığın keyfiyyətindən gedir. Təbii ki, bu yeni memarlığı peşəkarlar layihələndirir. Burada məndə sual yaranır. Dəfələrlə bildirmişəm; mütləq açıq, şəffaf şəkildə memarlıq müsabiqələri keçirilməlidir ki, sifarişçilərdə seçim olsun. Bilmirəm bu italiyalı memar kimdir, ppeşəkarlığı nə qədərdir və sözün düzü, istəməzdim ki, bir memar kimi başqa bir memarın işinə qiymət verim. Hesab edirəm ki, bizim hökumətimiz açıq, şəffaf şəkildə müsabiqə elan edib, Azərbaycan memarlarına 1 ay vaxt versəydi, hər memarımız bu müsabiqədə iştirak edib yüzlərlə ideya ortaya qoya bilərdi.

***- Bir çox hallarda belə fikirlər səslənir ki, xarici memarların gəlib müsəlman ölkələrində milli ornamentləri əks etdirən memarlıq abidəsi yaratması mübahisə ilə qarşılanır. Belə hesab olunur ki, bunun üçün memarlar xüsusi biliyə, təc-rübəyə malik olmalıdır. Siz necə hesab edirsiniz?***

- Hesab edirəm ki, hər bir memar - istər italiyalı olsun, istər azərbaycanlı, fərqi yoxdur - hər üslübda işləyə bilərlər. Bakının ən qızıl memarlıq dövrü XIX əsrin sonu, XX əsrin əvvəllərinə təsadüf edir. Biz o dövrün “Ar Nuvo” memarlığı ilə fəxr edirik. Onların 90 faizi əcnəbi memarlardan - almanlar, polyaklar, ruslar və başqa xarici memarlar tərəfindən layihələndirilib. Həmin memarlar ovaxtkı Bakının simasını yaradıb. Biz görürük ki, bu həm Avropa memarlığıdır, həm də orada bizim milli elementlərimiz var. Bu memarın yaşadığı, anadan olduğu yerdən, milliyyətindən asılı deyil. Memar ppeşəkardırsa, o, hər bir üslübda, hər bir regionda layihələndirmə apara bilər. Bundan başqa memarlığı milliyyətə bölmək olmaz. “Milli memarlıq” düzgün termin deyil. Milli memarlıq olmur. Hər bir regionun özünəməxsus memarlığı var. Ümumən baxanda millilik bu memarlıq layihəsində hiss olunur. Hesab edirəm ki, müsabiqə olsaydı, bu layihədə yaxşı təkliflər də olardı.



**Mayın 12-də Şuşada təməli qoyulan yeni məscid kompleksi 8 rəqəmi və minarələri isə 11 rəqəmi şəklində olacaq. Vəscid kompleksinin layihəsində əks olunduğu kimi, bu, Şuşanın noyabrın - 11-ci ayın 8-də azad edilməsini və Zəfər Gününü simvolizə edir.**

Ümumiyyətlə, memarlıq ümumdünya sənətidir. Professional memar hər bir üslubda çıxış edə, hər bir layihəni işləyə bilər. Məsələn, azərbaycanlı memar kimi həm pravoslav kilsəsini bərpa eləmişəm, həm də katolik kilsəsinin layihəsini işləmişəm. Müsəlmanam və o vaxta qədər heç kilsələrə girmirdim. Layihəni peşəkar şəkildə işlədim, sifarişçinin də xoşuna gəldi. Ona görə burada bir problem görmürəm. Məsələn, Polşa memarı Jozep Kvosko “Nizami” metro stansiyasının yanında yerləşən Hacı Sultan Əli Məscidini layihələndirib. Görün nə gözəl memardır. Təzəpir Məscidini isə Polşa memarı Skivinski layihələndirib. Məscid milli ornamentlərlə çox gözəl bəzədilib. O dövrdə, çox təəssüf ki, bizdə Azərbaycan memarları çox yox idi. Ona görə də İtaliya memarının Şuşada məscid layihələndirməsində bir problem görmürəm.

***- Elçin müəllim, sizin Şuşada və Qarabağın digər ərazilərində abidələrin bərpası ilə bağlı müsabiqənin keçirilməməsi ilə bağlı narahatlığınızı Şuşa Turizm İdarəsinin rəhbəri ilə bölüşəndə o bildirdi ki, abidələr yenidən qurulmur ki, müsabiqə keçirilsin. Ona görə müsabiqəyə ehtiyac yoxdur.***

- Bu, yanlış yanaşmadır. İstər tarixi şəhər olsun, istər müasir, istər bərpa layihəsi olsun, dünyada müsabiqələr keçirilir. Mən özüm 10 il qabaq Misir piramidalarının bərpası ilə bağlı müsabiqə keçirilərkən, orada iştirak edirdim. Ümumiyyətlə sivil, normal olan ölkələrdə memarlıqla bağlı olan hər bir problem üçün müsabiqələr keçirilir. Leninin vaxtında Azərbaycanda 20-ci illərdə, Stalinin o repressiya illərində müsabiqələr keçirirdilər. Azərbaycanın tarixində yeganə vaxtdır ki, biz müsabiqələrdən imtina edirik.

✍ *Tahirə Qafarlı*

## Diaspora

# Ordumuzun apardığı döyüşlər finləri heyrətləndirmişdi...

***Bu** yaxınlarda xəbər tutduq ki, Finlandiyada - Kirkkonummi şəhərində yaşayan azərbaycanlımız, Azər-Türk Gənclər Birliyinin və Skandinaviya Azərbaycanlılarının Finlandiya üzrə Koordinasiya Şurasının əlaqələndiricisi Ülviyyə Cabbarova bələdiyyə seçkilərində namizəd olaraq iştirak edəcək. Namizədliyi Sosial Demokrat Partiyası tərəfindən irəli sürülən bu fəal xanımı oxucularımıza tanıtmaq, onun Azərbaycan üçün xeyli sirli qalan bu əsrarəngiz ölkədə milli maraqlarımız naminə gördüyü işlərdən söz açmaq, ümumiyyətlə, hazırda Finlandiyada Azərbaycana münasibətin necə olduğunu öyrənmək istədim.*

Bir çox mövzularda söhbət etdiyim müsahibimiz öncə bələdiyyə seçkilərində iştirakından söz açdı. Belə başa düşdüm ki, seçkidə uğur qazanacağına əmindir, çünki çox rahatdır bu məsələdə...

- Doğrudur, iyunda Finlandiyada keçirilən bələdiyyə seçkilərində iştirak edəcəyəm. Namizədliyim Sosial-Demokrat Partiyası tərəfindən irəli sürülüb. Dövlət qeydiyyatından keçmişik, partiya olaraq qarşımızda ciddi seçki prosesi var və hazırda ona hazırlaşırıq. Təbliğat dönəmində fin seçicilərə həm təmsil olunduğumuz partiyanın seçki platformasını, həm də ayrı-ayrılıqda hər bir namizəd öz fikir və düşüncələrini, seçici üçün ən önəmlisi - nədən bizi seçməli olduğunu, bizim digər namizədlərdən əsas fərqimizin nədən ibarət olduğunu və sair məsələləri çatdıracağıq. Yaranmış fürsətdən istifadə edib, Finlandiya - Azərbaycan münasibətlərindən, doğulduğum Azərbaycanın tarixi, mədəniyyəti, Qafqaz regionunda Azərbaycanın əhəmiyyətini, hazırda yürütdüyü regional və qlobal siyasətini, neft ölkəsi kimi Avropanın ən önəmli enerji təchizatına verdiyi yüksək töhfəsini və ən əsası, Qarabağ haqqında dolğun məlumatları sətiraltı seçicilərimə çatdırmağı planlaşdırıram. 1918-ci ildə yaranmış Azərbaycan Demokratik Respublikası və onun insan hüquqları konteksində gördüyü mühüm işləri, qadınların Şərqdə ilk dəfə seçki hüququ qazanmasını, Azərbaycanın sovet dönəmi və ikinci dəfə müstəqilliyini əldə etməsi, Azərbaycanla bağlı maraqlı mövzular haqqında geniş məlumat verməyi təbliğat paketində istifadə edəcəyəm. Seçilmək şansımıza gəldikdə, deyə bilərəm ki, çox inamlıyam, lakin burada namizədlərin şəxsi nüfuzundan daha çox əsas rolu partiyanın seçkilərdə istifadə etdiyi dövrün təbliğat metoduna uyğun şüarlar və seçki prosesində istifadə etdiyi taktikalar əsas rol oynayacaq.

***- Finlandiyada azərbaycanlılar, eyni zamanda türklər çoxdurmu? Niyə soruşdum, soydaşlarımızın çox olması sizə hər baxımdan dəstək sayıla bilərdi...***

- Son zamanlar qısa müddətdə azərbaycanlıların Finlandiyada təşkilatlanması yüksək səviyyədə irəliləyir, onlar Azərbaycançılıq naminə

> *“Ölkəmizdə keçirilən beynəlxalq tədbirlər Azərbaycanı bütün dünyada, eləcə də Finlandiyada müsbət mənada tanıdıb*

bir çətir altında birləşərək həmrəylik nümayiş etdirir və bir-birlərinə dəstək olurlar. Türklərin sayı haradasa beş minə yaxındır. Ulu öndərimiz Heydər Əliyevin dediyi kimi, biz bir millət, iki dövlətik. Finlandiyada yaşayan türklərlə ortaq layhiyyələrimiz çox əhəmiyyətlidir və deyərdim ki, çox uğurlu alınır. Finlandiyada yaşayan azərbaycanlıların bir çoxu öz sahəsində tanınmış musiqiçi, həkim, alim və iş adamlarıdır.

Musiqiçilərimiz fəal yaradıcılıqla məşğul olur, mütəmadi konsert proqramları və digər bu kimi tədbirlərdə iştirak edirlər. Həkimlərimiz sayılıb-seçilən klinikalarda bizi təmsil edir, gördükləri işin öhdəsindən layiqincə gəlirlər. Müəllimlərimiz isə fin məktəblərində müxtəlif elmlərin tədrisi ilə məşğul olaraq, yüksək səviyyədə və xüsusi peşəkarlıqla işlərini icra edirlər. Mən yaşadığım Kirkkonummi şəhərində, təəssüf ki, çox az sayda türklər və azərbaycanlılar var. Buna baxmayaraq, ciddi inteqrasiya şəbəkəsi yaratmışıq, bir-birimizlə ünsiyyətlərimiz hər keçən gün artır.



**Ülviyyə Cabbarova,**
Azər-Türk Gənclər Birliyinin və Skandinaviya Azərbaycanlılarının Finlandiya üzrə Koordinasiya Şurasının əlaqələndiricisi

***- Seçkilər aprelin ortalarında olmalı olsa da, pandemiya səbəbindən iyunadək təxirə salınıb. Pandemiya yenə davam edir, iyunda Finlandiyada koronavirusa yoluxma hallarının aradan qalxacağı ehtimalı varmı?***

- Finlandiyada başqa ölkələrdə olduğu kimi, artıq əhaliyə vaksinlər vurulmağa başlayıb. Bəzi məhdudiyyətlər hələ də davam edir. Toplantıların, konsertlərin və digər kütləvi tədbirlərin kecirilməsi qadağandır. Seckilərə artıq onlayn hazırlıqlar başlayıb. Demək olar, hər gün müxtəlif toplantılar, kurslar təşkil edilir.

***- Finlandiya bizə bir qədər qapalı, qaranlıq ölkədir. Niyə, çünki sizə qonşu ölkələrin Bakıda səfirlikləri olsa da, Finlandiyanınkı yoxdur. Düzdür, son illərdə açılmışdı, amma səfiriniz Bakıda oturmadı. Maraqlıdır, bu ölkədə Azərbaycan barədə nə bilirlər, ölkəmizə maraq necədir?***

- Finlandiyada Azərbaycanla bağlı müsbət fikirlər var. Ölkəmizdə keçirilən beynəlxalq tədbirlər Azərbaycanı bütün dünyada, eləcə də Finlandiyada müsbət mənada tanıdıb. Avroviziya, Birinci Avropa Oyunları, Formula-1 kimi dünyamiqyaslı tədbirlərdə iştirak etmiş Finlandiya vətəndaşları ölkəmizin füsunkar təbiətindən, Bakımızın gözəlliyindən, insanlarımızın qonaqpərvər və istiqanlı olmağından böyük məmnunluq hissi ilə danışırlar. Finlandiya - Azərbaycan siyasi-iqtisadi əlaqələri güclənir. Ona görə də düşünürəm ki, ikitərəfli diplomatik münasibətlərin daha effektif fəaliyyəti üçün diplomatik nümayəndəliklərin açılması zəruri olacaq.

***- Bilmək istərdik: 44 günlük Zəfər müharibəsi dövründə fin ictimaiyyəti Azərbaycan barədə nə deyib-danışırdı? Bir çox Avropa ölkələrinin ermənilərə tərəf olduğunu görürdük...***

- Biz dəfələrlə fin mətbuatında fikirlərimizi bildirdik. Erməni təbliğatının qarşısını almaq məqsədilə, fin mediasına - nüfuzlu qəzet, telekanal və saytlara müharibə barədə dolğun məlumatlar göndərir, 27-28 il öncə işğal edilmiş Azərbaycan torpaqlarının əsarətdən azad edilməsi prosesinin Azərbaycan Ordusu tərəfindən aparıldığını qeyd edirdik. Finlandiya parlamentinin qarşısında bir neçə dəfə aksiyalar kecirdik. Bir şeyi vurğulayım: fevralın 26-da paytaxt Helsinki şəhərinin mərkəzində, dəmir yolu vağzalında və metro stansiyalarında “Xocalıya ədalət!” şüarı yazılmış rəqəmsal lövhələr quraşdırdıq. Əvvəllər soyqırımı haqqında şüarların yayımlanmasına icazə verilmirdi. Təbliğatımızın fin ictimayyətinə güclü təsiri oldu. Həmin elektron ekranların yanında gənc təmsilçilərimiz növbə ilə dayanırdı və insanların ekranda gördükləri mövzularla bağlı ünvanladıqları suallara cavab verirdilər. Finlər üçün Azərbaycan Prezidenti İlham Əliyevin çıxışları böyük rezonans doğururdu. Bir neçə dildə jurnalistlərin suallarını cavablandıran Prezidentimiz qısa müddətdə Finlandiyanın siyasi mərkəzlərində, partiyalarda ciddi müzakirə mövzusuna çevrilmişdi. Ordumuzun yeni dünyanın müasir savaş üsulu ilə döyüşü finləri heyrətləndirmişdi.

***- Finlərin münasibətindən söz düşmüşkən, siz bəzi məqamlara toxundunuz, amma ümumilikdə götürsək, Finlandiyada Azərbaycan həqiqətlərinin yayılması üçün diaspor təşkilatlarımız və diplomatik kanallarımız nə iş görürlər? Diasporla Azərbaycan diplomatik korpusu arasında əlaqələndirmə mövcuddurmu?***

- Biz Finlandiyada yaşayan azərbaycanlılar öncə öz ailələrimizdə adət-ənənələrimizi qoruyub inkişaf etdiririk və bunları gələcək nəslə ötürməyi düşünürük. 2012-ci ildən yaratdığım Azər-Türk Gənclər Birliyinin başlıca məqsədi də, məhz milli adət-ənənələrimizi, musiqimizi, mədəni irsimizi, tariximizi Azərbaycan və türk gənclərinin yaddaşına həkk etmək, həmcinin yerli ictimaiyətə catdırmaq idi. 2019-cu ildən Finlandiya Azərbaycanlılarının Koordinasiya Şurasının rəhbəri olaraq fəaliyyət göstərirəm. 2019-ci ildən bu günədək, demək olar, hər ay Azərbaycanı daha cox tanıtmaq ücün müxtəlif mövzularda tədbirlər təşkil edirik. Tədbirlərin coxu fin dilində kecirilir. Məsələn, son kecirdiyim tədbirlərdən “Qarabağın mədəniyyət



günləri”, Helsinki şəhərində “Xocalıya Ədalət” aksiyası, Novruz Bayramı, Cəfər Cabbarlının Yaradıcılıq Günü, Bayraq Günü, Azərbaycanın Zəfər bayramı, Finlandiyada təhsil alan tələbələrin və bu ölkədə yaşayan həmvətənlərimiz adından Vətənimizə, ordumuza, şəhid ailələrimizə, terror qurbanlarına dəstək aksiyalarını qeyd edə bilərəm. Fürsətdən istifadə edərək sizin vasitənizlə tədbirlərimin kecirilməsində Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin böyük əməyi olduğu üçün, başda sədr Fuad Muradova və komitə əməkdaşlarına təşəkkürümü bildirirəm. Bu gün Finlandiyada yaşayan soydaşlarımızın başlatdığı bu ənənəni davam etdirərək Azərbaycançılıq ideologiyası, müstəqil Azərbaycan dövlətinin üçrəngli bayrağı ətrafında sıx birləşir və fəaliyyətləri ilə Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işinə, ölkəmizin tanıdılmasına öz töhfələrini verirlər. Finlandiyada akkreditə olunmuş xarici ölkələrin diplomatik nümayəndəliklərinə Azərbaycan haqqında dolğun məlumatlar vermək və fəaliyyətimizə dəstək verməleri üçün müəyyən görüşlər təşkil edirik.

***- Sərf etdiyiniz əməyin qarşılığında Finlandiya-Azərbaycan əlaqələrinin səviyyəsi sizi qane edir? Münasibətlərdə sizcə nələr qaydasındadır, nələr əskikdir?***

- Finlandiya-Azərbaycan əlaqələri hər keçən gün bizim lehimizə istiqamətlənir desəm yanılmaram. Bildiyiniz kimi, burada da erməni diasporu və lobbi fəaliyyəti ilə məşğul olan erməni qurumları çoxluq təşkil edir. Bütün fəaliyyətləri yalan üzərində qurulduğu üçün Azərbaycanın son zamanlar artırdığı informasiya təbliğatı nəticəsində fin ictimaiyyəti alternativ fikirlərlə tanış olur və nəticədə uzun illərdən bəri ermənilərin Azərbaycan və Türkiyə əlehinə uydurduğu yalanların açıq şəkildə şahidi olurlar. 44 günlük Vətən müharibəsində dünyanın gözü bizim bölgəyə dikildiyindən, Avropa insanı üçün maraq kəsb edən bölgəyə çevrilmişdik. Azərbaycan və Türkiyə mətbuatı, eyni zamanda, bizim diaspor təşkilatlarımızın düzgün təbliğatı nəticəsində uzun illər Avropa insanının şüurunda formalaşmış erməni yalanları ifşa edildi. Hesab edirəm ki, bizdə olan məlumata görə, Finlandiya hökuməti Azərbaycan-Finlandiya münasibətlərinə yenidən baxmaq üçün addımlar atacaq. Azərbaycan tərəfi də siyasi, iqtisadi, mədəni münasibətlərdə daha fəal iştirak etməklə ikitərəfli münasibətlərin daha da inkişafında ciddi rol oynayacaq.

***- Yaşadığımız bu il ərzində Azərbaycanımızın təmsilçisi olaraq bu sirli ölkədə hansı plan və proqramlar həyata keçirəcəksiniz?***

- Bu il üçün yeni layihələrimiz var və yaxın gələcəkdə sistemli şəkildə nəzərdə tutduğumuz tədbirlər həyata keçiriləcək. 28 May - Azərbaycanın Respublika Günü üçün iki fərqli formatda keçirəcəyimiz tədbirə hazırlıq işləri gedir. Bilirsiniz, dünya siyasəti sürətlə dəyişir və bu da təbliğat modellərinin tez-tez dəyişməsini zəruri edir. Bəzən bu il keçirdiyin tədbirin effekti növbəti il mahiyyətini itirir və yeni təbliğat vasitəsindən istifadə etmək məcburiyyətində qalırsan. Ona görə də klassik təbliğat metodlarından qaçaraq, yeni dünyanin diqtə etdiyi təbliğat vasitələrindən istifadə etməli oluruq. Bu səbəbdən, Finlandiyada insanların maraqlarına daha uyğun vasitələrdən istifadə edib, fəaliyyətimizi o istiqamətdə qurmağı planlayırıq. Son olaraq, Finlandiyada yaşayan azərbaycanlılar adından sizin vasitənizlə demək istəyirəm ki, Müzəffər Ali Baş Komandanımıza və qəhrəman Azərbaycan Ordusuna çox-çox minnətdarıq. Dünən Qarabağ işğal altında idi, biz təbliğatımızda işğalda olan torpaqlarımızdan, Xocalı soyqırımından, bir sözlə, səbəbləri nə olursa-olsun, müharibədə uduzmağımızdan danışırdıqsa, indi Azərbaycanın dünya səviyyəli bir neçə dildə danışan prezidentindən, qalib ordumuzun qəhrəmanlıqlarından, Qarabağın işğaldan azad edilməsindən, Xocalının qisasının alınmasından və bir sözlə, Qafqazın ən güclü xalqı, lider dövləti Azərbaycanın xoş uğurlarından danışırıq.

✍ ***Vüsal***

## XƏBƏRİNİZ OLSUN...



■ Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyası Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Brüsseldə NATO baş katibinin müavini Mirça Geoana ilə görüşüb. Bu barədə təşkilatın mətbuat xidməti bildirib. Tərəflər Azərbaycan - NATO əməkdaşlığının cari məsələlərini müzakirə ediblər.

---

■ Roma Papası Fransisk İranın xarici işlər naziri Məhəmməd Cavad Zərifi qəbul edib. Bu barədə Müqəddəs Taxt-Tacın mətbuat xidməti məlumat yayıb. Cavad Zərif İtaliyaya səfəri çərçivəsində Roma Papası ilə görüşüb. Görüşün detalları barədə məlumat verilməyib.

---

■ Müəllimlərin iş yerinin dəyişdirilməsi müsabiqəsinə elektron sənəd qəbulu mərhələsi başa çatıb. 5-16 may tarixlərini əhatə edən bu mərhələdə 13 105 şəxs müsabiqədə iştirak etmək üçün müraciət edib. Onlardan 8441 nəfəri ərizəsini tamamlayaraq iştirakını təsdiq edib. Müsabiqənin növbəti mərhələsində namizədlərin ərizələri yoxlanıldıqdan sonra elektron yerləşdirmə həyata keçiriləcək.

---



■ Bakı Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri Vüsal Kərimli deyib ki, Dənizkənarı Milli Park ərazisində 7, 5 kilometr velosiped yolu çəkilib: ”Bu proses davam etdirilir, 2023-cü ilə qədər Bakıda 63.5 kilometr uzunluğunda velosiped yolu olacaq. 2040-cı ildə isə Azərbaycanda 251 kilometr uzunluğunda velosiped yolunun çəkilməsi planlaşdırılır”.

---

■ Rusiyanın Yekaterinburq şəhərinin sakini parkda üç nəfəri bıçaqlayaraq qətlə yetirib. Hadisə şəhər vağzalının yaxınlığında baş verib. Orta yaşlı kişi bıçaqla hücum edərək üç nəfəri qətlə yetirib. Hadisənin spirtli içki qəbul edən şəxslər arasında yaranan münaqişə nəticəsində baş verdiyi bildirilir.

---



■ ANAMA işğaldan azad edilmiş ərazilərdə icra olunan əməliyyatlar barədə həftəlik məlumat açıqlayıb. Mayın 10-dan 16-na qədər Tərtər, Ağdam, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl və Zəngilanda 82 piyada əleyhinə mina, 5 tank əleyhinə mina və 24 Partlamamış Hərbi Sursat (PHS) aşkarlanıb. Bildirilib ki, 135.5 hektar ərazi mina və PHS-lardan təmizlənib.

---

■ Daxili işlər orqanlarında yeni təyinat olub. Bu barədə Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov əmr imzalayıb. Əmrə əsasən, polis kapitanı Nicat Hümbətalıyev Xocavənd Rayon Polis Şöbəsinin əməliyyat üzrə rəis müavini təyin edilib.



**■ İki xəstəxanada kobud pozuntular aşkarlanıb. Bu barədə hafta.az-a Qida Təhlükəsizliyi Agentliyindən (AQTA) bildiriblər.**

AQTA tərəfindən “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” publik hüquqi şəxsin (TƏBİB) tabeliyində fəaliyyət göstərən tibb müəssisələrində yoxlamalar zamanı Xaçmaz Rayon Mərkəzi Xəstəxanası və Siyəzən Müalicə Diaqnostika Mərkəzində qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların və xəstələrin qidalanmasının təşkili sahəsində tələblərin kobud şəkildə pozulması faktları aşkar olunub. Bu faktlara hüquqi qiymət verilməsi üçün sənədlər toplanaraq Azərbaycan Respublikasının Baş Prokurorluğuna təqdim olunub.




**■ Bu ilin 4 ayı və mayın ilk 15 günü ərzində piyadaların yol hərəkəti qaydalarını pozması ilə bağlı 9 min 284 fakt aşkar edilib.**

Qeydə alınan qayda pozuntularının 5 min 293-ü Bakının payına düşür. Hesabat dövründə 1065 nəfər işıqforun tələblərinə məhəl qoymadan hərəkət zolağına çıxmasına, 2044 nəfər yola yaxınlaşmaqda olan avtomobillərin qarşısına çıxmağa görə,43 nəfər qırmızı və göy işıq quraşdırılmış nəqliyyat vasitəsi yaxınlaşan zaman yolun hərəkət hissəsini tərk etməməyə görə, 2106 nəfər dəmir yolu keçidi və yolu müəyyən olunmamış ərazidən keçməyə görə cərimə edilib.



**■ Kiyevdə Ukrayna, Gürcüstan və Moldova xarici işlər nazirlərinin üçtərəfli görüşü keçirilib. Bu barədə Gürcüstan Xarici İşlər Nazirliyi (XİN) məlumat yayıb.**

Bildirilib ki, üçtərəfli görüş zamanı hər üç ölkənin Avropaya inteqrasiyasının sürətləndirilməsi məqsədi ilə birgə koordinasiya və əməkdaşlıq formatının təsis edilməsi barədə memorandum imzalanıb. Memoranduma əsasən, hər üç ölkə Avropa İttifaqına üzvlüyü son məqsəd elan edib. Qeyd olunub ki, tərəflər Avropaya inteqrasiya yekun hədəfinə nail olmaq məqsədi ilə Assosiasiya Razılaşması çərçivəsində öhdəliklərini yerinə yetirəcəklər.



**■ Ali və orta ixtisas təhsili müəssisələrində 2020-2021-ci tədris ilinin yaz semestrinin imtahan sessiyası distant (məsafədən) formada keçiriləcək.**

Nazir Emin Əmrullayevin imzaladığı müvafiq əmrdə bildirilir ki, müəyyən fənlər üzrə imtahanlar əyani formada keçirildiyi təqdirdə “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” publik hüquqi şəxs tərəfindən hazırlanmış “İmtahanlar zamanı koronavirus infeksiyasının (COVID-19) profilaktikasına dair metodiki göstərişlər”ə və Nazirlər Kabinetinin müvafiq qərarı ilə təsdiq edilmiş “Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydaları”na riayət olunmalıdır.



**■ Bu il Formula 1 yarışması zamanı Dənizkənarı Milli Park bağlanmayacaq. Bu barədə hafta.az-a Bakı Şəhər Halqasından (BŞH) məlumat verilib.**

Bildirilib ki, bu il koronavirus pandemiyası ilə əlaqədar əyləncə zonası, “Formula 1 Village” olmadığına görə bulvarın bağlanmasına ehtiyac olmayacaq.

Qeyd edək ki, əvvəlki yarışlar zamanı Dəmizkənarı Milli Park yarış müddətində bağlanırdı, orada əyləncə zonası təşkil olunurdu və yalnız biletləri olan insanlar həmin əraziyə buraxılırdı. Azərbaycanda Formula 1 Qran Prisinin 2021-ci il 4-6 iyunda keçirilməsi nəzərdə tutulur.

# "Hər şey o qədər möhtəşəm idi ki..."

## Xarı bülbül

***İki gün öncə qədim və zəngin mədəniyyətimizin beşiyi olan Şuşa şəhərində "Xarı Bülbül" musiqi festivalı keçirildi. Ermənistanın işğalından azad olunandan sonra ilk dəfə təşkil edilən festival mayın 12-si və 13-də Heydər Əliyev Fondunun təşkilatçılığı ilə baş tutdu. Bu tarixi gündə ölkəmizdə yaşayan müxtəlif xalqların musiqi kollektivlərinin çıxışı, xalq və klassik musiqidən ibarət proqram təqdim edildi. Tədbirə dəvətlilər arasında bir sıra ictimaiyyət və mədəniyyət xadimləri, Qarabağdan, o cümlədən Şuşadan olan tanınmış şəxslər var. Hafta.az-ın əməkdaşı belə incəsənət xadimlərinin ikisi ilə həmsöhbət oldu. Qalib xalqın məğrur nümayəndələri keçirdiyi hissləri bizlərlə bölüşdülər. Kimi sevincindən daşı-torpağı öpüb, kimisi də...***





Mənsum İbrahimov,
Xalq artisti

**■ İlk olaraq Xalq artisti Mənsum İbrahimov hələ də festivalın ab-havasından çıxa bilmədiyini söylədi: "Hər şey o qədər möhtəşəm idi ki, mən hələ də o ab-havadan çıxa bilmirəm. Təsəvvür edin ki, 32 il sonra yenidən festival bərpa olundu, özü də bu dəfə Cıdır düzündə...**

Mən də bir ifaçı kimi burada çıxış etdim, "Qaçaq Nəbi" oxudum. Bir il öncə mənfur qonşularımız orada yallı gedib, şənlik keçirmişdilər. Bu hadisə həm mənim, həm də xalqımızın psixologiyasına çox mənfi təsir göstərmişdi. Bu gün isə biz qalib xalqın nümayəndələri olaraq Cıdır düzünə gedib, orada böyük festival keçirdik. O torpaqların sahibi qayıtdı, sanki hava da bizim qayıdışımızı bayram edirdi. Hər kəsin üzü günəşdən yanıb, qıpqırmızı olmuşdu. Küskün Şuşamız öz sakinlərini bağrına basdı həmin gün... Həm də biz bu festival vasitəçiliyi ilə dünyaya necə tolerant xalq olduğumuzun mesajını verdik. Festivalın ilk günü ölkəmizdə yaşayan azsaylı xalqların nümayəndələri öz musiqiləri, mədəniyyətləri ilə çıxış etdilər. Azərbaycanda digər xalqlara münasibət bu qədər yüksək səviyyədədir. Biz tarixboyu qardaş kimi yaşamışıq. Olduqca sülhsevər xalqıq və heç kəsin torpağında gözümüz yoxdur. Cənab Prezident də çıxışında vurğuladı ki, biz burada əbədiyik. Bəli, biz sahibi olduğumuz qədim torpaqlarımızda əbədi yaşayacağıq".

Xalq artisti, həmçinin çətin relyefə malik olan bu müdhiş şəhərin işğalçılardan azad edilməsi zamanı hərbçilərimizin misilsiz qəhrəmanlıq göstərdiyini də vurğuladı. Onlara öz təşəkkürünü bildirdi: "Mənə çox maraqlı idi ki, bizim igidlərimiz qayalardan Şuşaya nə cür dırmanıb. İnandırım sizi, Cıdır düzündə sıldırım qayanın üzərinə çıxdım. Bir daha əmin oldum ki, bizim igidlərimiz mümkünsüzü mümkün ediblər. Həmin an şəhidlərimizin ruhuna dualar oxudum, qazilərimizə Allahdan şəfa dilədim".

**■ Daha sonra isə aşıq sənətinin görkəmli nümayəndəsi Əli Tapdıqoğlu təəssüratlarını oxucularımızla bölüşdü:** "Festival başdan-sona bir tarix idi. Hansı məqamı xüsusi vurğulayım, heç bilmirəm. Elə orada təşkil edilən atəş-fəşanlıq özü çox sözü deyirdi. O anları sadəcə izləmək lazımdır. Bütün Qarabağ - Xankəndidə yaşayan mənfur qonşularımız həmin anlara şahidlik etdi. Bu torpağın kimə aid olduğunu təkrarən dərk etdilər. İlk dəfə olaraq Gövhərağa məscidində bayram namazı qılındı. Yeni tikilecək məscidin, orta məktəbin təməli qoyuldu. Hazırda Şuşada kütləvi iş gedir. Yollar çəkilir, infrastruktur düzəlir, abidələrimiz bərpa olunur, bütün bunlara baxdıqca adamın ürəyi açılır. Altı ay sonra tamam başqa bir Şuşa bizi qarşılayacaq. "Zəfər yolu" ilə biz öz torpaqlarımıza gedəcəyik. Çox güman, elə yerli sakinlər də köçürüləcək. Fikrimcə, gələn il orada həyat öz axarına qayıdacaq.

"Xarı Bülbül" festivalı bir tarix idi. Torpaqların əzəli və əbədi sahibləri kimi orada öz tədbirimizi təşkil edib dünyaya lazımi mesajları çatdırmış olduq. Mən bir daha xalqımızı həm Müqəddəs Ramazan Bayramı, həm də torpaqlarımızın azad edilməsi münasibətilə təbrik edirəm". Yaşımın az olmasına baxmayaraq, bu günə qədər çox böyük tədbirlərdə iştirak etmişəm. YUNESKO-nun səhnəsində belə çıxışım olub. Şuşada-Cıdır düzündə keçirdiyim həyəcanı heç vaxt etməmişdim. Bu duyğu sözlərlə ifadə edilməyəcək qədər dərin və fərqlidir. "Xarı Bülbül" festivalındakı çıxış tək mənim deyil, digər incəsənət nümunələrinin də arzularının reallaşması idi. O hissləri isə ancaq yaşayanlar bilər. Bu günə qədər hələ də həyəcanı keçməyib. Biz tədbirdən bir gün öncə ora məşq üçün getmişdik. Cıdır düzünə çatar-çatmaz bütün incəsənət adamları bir-biri ilə uşaq kimi qaynayıb-qarışmağa, şəkillər çəkdirməyə başladılar. Torpağı öpən kim, ağlayıb sevincini bürüzə verən kim... İçi mən qarışıq hər kəsin ürəyində həyəcan və qürur hissi var idi...".



Əli Tapdıqoğlu,
aşıq



Yaşar Muradov,
Şuşa Dövlət Musiqili Dram Teatrının solisti və baş inzibatçısı

**■ Şuşa Dövlət Musiqili Dram Teatrının solisti və baş inzibatçısı Yaşar Muradov hafta.az-a bildirdi ki, "Xarı Bülbül" Musiqi Festivalına Mədəniyyət Nazirliyi tərəfindən dəvət almışdıq:**

"Burada səhnə almasam da tədbirdə iştirak etdim və ən əsası, Şuşa torpağına illər sonra yenidən ayaq basdım. Şuşaya gedişim, yaşadığım hisslər çox fərqli və ifadə edilməzdir. 8-9 yaşlarında oranı tərk etməyə məcbur qalsam da, festival sayəsində Şuşaya qalib xalqın nümayəndəsi kimi qayıtdım. Hələ də yaşadıqlarım mənə yuxu kimi gəlir. Tez-tez şəkillərə baxıram. Onda hiss edirəm ki, yox həqiqətdir, mən Şuşaya getmişəm, mənim torpağım azaddır. O vaxt Şuşadan ayrılanda yaşım az idi, ancaq ora ilə bağlı xatirələrim daim ağlımdadır. İndi Şuşamız çox dəyişib. Döyüşlərin getdiyini də nəzərə alsaq, bu çox normaldır. Əminəm ki, tezliklə əvvəlki gözəlliyinə qayıdacaq. Əsas olan odur ki, doğma şəhərim əsl sahibləri ilə qovuşdu. Bir daha Allah dövlətimizə, ordumuza güc-qüvvət versin. İndi yaşadıqlarım bir vaxtlar yuxularımda gördüklərimdir. Sanki bir andaca oyanmışam və yuxularım gerçək olub.

Biz Bakıdan Şuşaya birbaşa avtobusla getdik. Ora düşənə qədər hələ də Şuşanın azad olunduğuna və ora getdiyimə inanmırdım. Uşaq olanda Şuşada qayanın yanında şəkil çəkdirmişdim. Elə o torpaqlara ayaq basdığım zaman ilk işim həmin qayanı axtarıb-tapmaq oldu. Fikirləşdim ki, üzərindən 32 il keçib, üstəlik, döyüşlər zamanı da qaya dağıla bilər, ancaq ki tapdım. O an hiss etdiklərimi isə leksikamızdakı heç bir kəlmə ilə ifadə etmək mümkün deyil. 30 ilin nisgili və bu günün qüruru - onu ancaq yaşayanlar bilər... Səfər müddətində oradakı evimizə də getdim. Düzdür dağılmayıb, ancaq yararsız haldadır. İndi Şuşamıza təkrar qayıdacağım və uşaqlığımı qoyub-gəldiyim ata-baba yurdumda yaşayacağım günlər üçün səbirsizlənirəm".

✍ Banu







## Naxçıvanda Reyhan Mirzəzadənin yeni kitabları işıq üzü görüb

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu tərəfindən "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində publisist-politoloq Reyhan Mirzəzadənin "Böyük şair-vətəndaş" və "Fikrin böyük sənətkarı" kitabları nəşr olunub.**

Yeni nəşrlər rus ədəbiyyatının dünya şöhrətli yazıçısı Fyodor Mixayloviç Dostoyevskinin və böyük klassik Nikolay Alekseyeviç Nekrasovun anadan olmasının 200 illiyinə həsr edilib.

"Böyük şair - vətəndaş" kitabında şair, yazıçı-dramaturq, istedadlı ədəbiyyat xadimi N.A.Nekrasovun həyat və yaradıcılığının bugünədək Azərbaycan oxucusuna məlum olmayan məqamları yer alıb. "Fikrin böyük sənətkarı" kitabında isə F.M.Dostoyevskinin həyatı və ona dünya şöhrəti qazandıran povest və romanlarından bəhs olunur. Yeni nəşrlərdə, həmçinin rus ədəbi tənqidçilərinin, şair və yazıçılarının, alman alimlərinin qiymətli fikirləri də yer alıb.

## "Nar" komandası "Breyn Rinq" yarışının yarımfinalına çıxdı




**"Nar"ın baş sponsorluğu ilə yayımlanan "Breyn Rinq" intellektual yarışının 17-ci mövsümünün ilk yarımfinalçılarının adı məlum olub.**

Finalda "Nar" və "Norm Sement" komandaları arasında gedən gərgin mübarizə nəticəsində "Nar" komandası qalib gələrək, yarımfinala vəsiqə qazanıb. Beləliklə, "Nar" kuboku uğrunda "Nar" və "Şəki" komandaları, eyni zamanda daha iki qalib komanda yarışacaq.

Qeyd edək ki, bilik yarışının builki mövsümündə respublikanın 6 bölgəsi və 6 ali məktəbini təmsil edən 16 seçilmiş komanda olimpiya sistemi üzrə mübarizə aparır. Qeyd edək ki, yarış hər həftənin cümə günü saat 22:00-da İctimai Televiziyada yayımlanır. Televiziya tamaşaçılarının yarışlara olan marağını daha da artırmaq məqsədilə hər il olduğu kimi bu il də "Nar"ın "Twitter <https://twitter.com/salam_nar>" səhifəsində yarış keçirilir.

### Proqnoz...

**ABŞ-ın Energetika Nazirliyi yanında Energetika İnformasiya Administrasiyası (EIA) Azərbaycanda 2021-2022-ci illər üçün gündəlik neft və digər maye karbohidrogenlərin hasilatı üzrə proqnozunu cüzi azaldıb.**

Bu il Azərbaycanda gündəlik neft və digər maye karbohidrogenlərin hasilatı 740 min barel təşkil edəcək ki, bu da əvvəlki proqnozdan 10 min barel azdır. Qurumun proqnozuna görə, 2022-ci ildə ölkədə gündəlik neft hasilatı artacaq və 790 min barel təşkil edəcək. Bu, apreldə verilən proqnozla müqayisədə 10 min barel azdır. EIA-in göstəricilərinə əsasən, ötən il Azərbaycanda orta gündəlik neft və digər maye karbohidrogenlər hasilatı 700 min barel səviyyəsində olub.



**■ Gürcüstan Daxili İşlər Nazirliyi (DİN) Dmanisidə qarşıdurma tərəflərini polisin qanuni tələblərinə tabe olmağa və münaqişəni süni etnik qarşıdurmaya çevirməmək üçün təmkinli olmağa çağırıb:**

"Daxili İşlər Nazirliyi asayişin qorunmasına cavabdeh bir qurum olaraq Dmanisidə toplanan vətəndaşları qanunun tələblərinə əməl etməyə və təmkinli olmağa çağırır. Polis ona verilən mandat çərçivəsində hərəkət edəcək və hər hansı bir qanun pozuntusuna cavab verəcək. Mayın 16-da Dmanisidə yerli sakinlər arasında mübahisə qrup zorakılığına çevrilib. Polis qarşıdurmana iştirak edən şəxslərin kimliyini müəyyən edib və istintaq çərçivəsində bütün lazımi cinayət-prosessual hərəkətləri aparılır.




**■ Bakı Nəqliyyat Agentliyi (BNA) paytaxt yollarında hərəkətin təhlükəsizliyini təmin etmək üçün digər dövlət qurumları ilə birgə işlər həyata keçirir. Bunu BNA-nın İdarə Heyətinin sədri Vüsal Kərimli deyib.**

O bildirib ki, işlərin əsas məqsədi piyadalaşmanın təmin edilməsidir: "Hədəfimiz şəxsi nəqliyyat vasitələrindən maksimum az istifadə edilməsini təşviq etməkdir. Yol infrastrukturunda layihələndirmə işləri bunun bir hissəsidir. Şəhərin mobilliyinin inkişafı, piyada zonalarının genişləndirilməsi və alternativ nəqliyyat növlərinin inkişafı ilə piyadalar üçün daha rahat, təhlükəsiz səyahət imkanlarının yaradılması bizim əsas strateji məqsədimizdir. Bu istiqamətdə 2030-cu ilə qədər Bakının mobilliyinin inkişaf strategiyası layihəsi hazırlanıb".



**■ Mayın 16-da ABŞ-ın Florida şəhərində "Kainat gözəli - 2021" beynəlxalq gözəllik müsabiqəsinin final mərhələsi keçirilib.**

Hafta.az Interfax informasiya agentliyinə istinadla xəbər verir ki, 69-cu gözəllik müsabiqəsinin qalibi Meksikanın 26 yaşlı təmsilçisi Andrea Mesa olub. O, tac uğrunda mübarizənin final mərhələsində Braziliya və Hindistandan olan qızları geridə qoyub. Meksika təmsilçiləri müsabiqə tarixində artıq üçüncü dəfədir ki, qalib adını qazanır (buna qədər 1991 və 2010-cu illərdə). Qeyd edək ki, koronavirus pandemiyası səbəbindən ən nüfuzlu gözəllik müsabiqəsinin keçirilməsi bir il təxirə salınmışdı.



**■ Ötən dövrdə cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı yeni qanunvericiliyə əsasən, 2100-ə yaxın məhkum cəzadan tamamilə azad edilib, 3300-dən artıq məhkumun cəza müddəti azaldılıb.**

Bunu Ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov deyib. Nazir qeyd edib ki, təkcə ötən il məhkəmələr tərəfindən 2300-ə yaxın məhkum cəzadan şərti olaraq vaxtından əvvəl azad olunub və ya yüngül rejimli müəssisəyə keçirilib: "Bununla yanaşı, 740 nəfər ev dustaqlığı və digər alternativ qətimkan tədbirlərinin tətbiqi nəticəsində həbsdən azad ediliblər. Ötən il pandemiya şəraitində yaşı 65-dən yuxarı olan məhkumların əksəriyyəti respublika Prezidenti tərəfindən əfv olunub.



**■ Qəzza ətrafında yaranan vəziyyətlə bağlı BMT Baş Assambleyasının iclası keçiriləcək. Bu barədə BMT Baş Assambleyasının Prezidenti, 75-ci Sessiyasının SədriVolkan Bozkır "Twitter"də bildirib.**

"İşğal olunmuş Fələstin bölgəsindəki pisləşməkdə olanvəziyyəti müzakirə etmək üçün "Orta Şərqdə vəziyyət" və "Fələstin məsələsi" gündəm maddələri altında BMT Baş Assamleyasının iclasının keçirilməsi ilə bağlıİslam Əməkdaşlıq Təşkilatının (İƏT) BMT-dəki təmsilçiliyinin sədri olan Nigeriyanın BMT-dəki Nümayəndəliyindən və Ərəbdilli ölkələr Qrupunun BMT-dəki nümayəndəliyinə sədrlik edən Əlcəzair missiyasından rəsmi məktub aldım.



**■ Mayın 18-dən yeni növ koronavirus infeksiyasına qarşı peyvəndlənmə məqsədi ilə vətəndaşlar Rusiya istehsalı olan "Sputnik V" vaksinindən də istifadə edə biləcəklər.**

Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyindən hafta.az-a verilən birgə məlumata görə, həmin vaksinin istifadəsinə Azadlıq prospekti 112 ünvanında yerləşən Bakı Sağlamlıq Mərkəzində başlanacaq. 18 yaşından yuxarı olan və əksgöstərişləri olmayan hər bir vətəndaş peyvənd oluna bilər. Qeyd edək ki, "Sputnik V" vaksini artıq dünyanın 65 ölkəsi tərəfindən tanınıb.

# Lənkəran Xan Sarayı - xan xanımının sifarişi

## Reportaj

*Hafta.az füsunkar təbiəti və zəngin tarixi mədəni abidələri ilə ölkəmizin sevilib-seçilən bölgələrindən biri olan Lənkəran şəhərinin qonağı olub. Bura Azərbaycanın qədim yaşayış məskənlərindən biridir. Bölgə ərazisində aparılmış arxeoloji qazıntılar bu yerlərdə hələ Tünc dövründən, yəni eramızdan əvvəl III-II minilliklərdə insanların yaşadığını təsdiq edir. Yerlilər deyir ki, Lənkərana gəlib Lənkəran Xan sarayını görməmək qəbahət olar. Biz də üz tutduq hazırda muzey kimi fəaliyyət göstərən sözügedən məkana...*

### Maraqlı tarixçə

**Lənkəran Xan Sarayı 1913-cü ildə Mir Əhməd xanın sifarişi ilə həyat yoldaşı Tuğra xanımın şərəfinə inşa edilib. Bina fransız memarları tərəfindən 3 ay müddətinə hazırlanıb və Xan ailəsi ilə birlikdə burada yaşayıb. Sarayın Tuğra xanıma hədiyyə edilməsinin də maraqlı bir tarixçəsi var.**

Belə ki, 1912-ci ildə Tiflisdə Tuğra xanımın birinci olduğu gözəllik müsabiqəsi baş tutub. Daha sonra Xan qalibiyyət münasibətilə sarayı xanımı üçün inşa etdirib. Sözügedən saray o dövrdə Tuğra xanımın istəklərinə uyğun olaraq, baxdıqda bütün Lənkəranın, dənizin göründüyü şəkildə inşa olunub. O vaxtlar ən hündür bina sayılan Xan Sarayı bütün Lənkərana açılan dəbdəbəli bir pəncərə idi. Həmin dövrdə şəhərdə ilk elektrik enerjisi də bu binaya verilib. Yeri gəlmişkən onu da deyək ki, Mir Əhməd xanla Tuğra xanım əminəvəsi imişlər. Mir Əhməd xan Fransada təhsil almış, savadlı və dünyagörüşlü bir şəxs olub.

### Cehizlik Venesiya güzgüləri



Foto: "HƏFTƏ İÇİ"

**Sarayda Tuğra xanımla Mir Əhməd xanın fotoları ikinci mərtəbənin divarlarını indi də bəzəyir. Onların şəxsi əşyaları, binanın ilk açarları da nümayiş edilən eksponatlar sırasındadır.** Muzeydə keçmiş dövrə aid arxası gümüşdən olan 3 ədəd böyük güzgü var. Əvvəllər sayı 7 olsa da, bizim dövrə onlardan yalnızda 3-ü qalmışdır. Hazırda biri 1-ci, digər ikisi isə 2-ci mərtəbədədir. Bu iri aynalar Tuğra xanımın cehizi olub və Venesiyadan gətirilib. Sovet dövründə güzgülər idarələrə paylanılıb. Daha sonra 3-ü tapılaraq aid olduğu yerə gətirilsə də, 4-ü haqqında heç bir məlumat yoxdur.



Foto: "HƏFTƏ İÇİ"

### Xarici turistlərə həsrət qalan muzey

**Bizi muzeylə tanış edən bələdçilərimiz isə 2 mehriban xanım - Elnura Qasımova və Fatma Əliyevadır. Xanımlar saxlanan eksponatlar, sərgilənən maraqlı guşələr haqqında bizləri məlumatlandırdılar.** Bələdçilərin sözlərinə görə, hazırda pandemiya şəraiti olduğundan, muzey xarici turistlərə həsrət qalıb. Əvvəllər həm yerli, həm də xarici ziyarətçilər Lənkərana gələrkən bura baş çəkmədən qayıtmazdılar. İçəriyə giriş isə ödənişsizdir. Burada ulu öndər Heydər Əliyevin anım günü, 9 May qələbə günü və Birinci Qarabağ müharibəsi ilə bağlı xüsusi bölmələr də mövcud idi. Gələcək aylarda muzeydə İkinci Qarabağ döyüşlərinə aid guşənin də yaradılacağı bildirildi: "Ulu öndər Heydər Əliyev muzeyimizdə qonaq olarkən verdiyi aftoqraf ən dəyərli eksponatlarımız arasında saxlanılır. 1941-1945-ci illərdə müharibədə iştirak etmiş başda Həzi Aslanov olmaqla yerli müharibə iştirakçılarımızın fotoları burada öz əksini tapmaqdadır".

Girişdə, lap qapının ağzında gələn qonaqların məkan haqqında düşüncələrini əks etdirmələri üçün iri bir xatirə dəftəri qoyulub. Sonda, təbii ki, biz də həm mehriban kollektiv, həm də gəzib-gördüklərimizin ardından, nəhayət, təəssüratlarımızı buraya qeyd etdik.



Foto: "HƏFTƏ İÇİ"

### Qurudulmuş flaminqo

**Qayıdaq gəzintimizə... Sarayın ilk mərtəbəsində Neolit və Tunc dövrlərinə aid olan qədim əşyalar nümayiş etdirilir.** Burada əlavə olaraq, 1962-ci ildə yaradılmış "Hirkan" və 1929-cu ildə yaradılmış "Qızılağac" qoruqlarının unikal "sakin"ləri təbii yollarla saxlanılaraq saray-muzeyin ziyarətçilərinin ixtiyarına verilib. Bələdçi deyir ki, "Qızılağac" qoruğundan nümunə olan Dəmirağac budaqlarının muzeydə yer alması heç də təsadüfi deyil:

"Adı "Qırmızı kitab"a düşmüş bu möcüzəvi bitki suda batan yeganə ağacdır. Onun yanında qurumaqda olan ağac varsa, Dəmirağac öz enerjisi ilə həmin bitkini yaxşılaşdırmaq kimi maraqlı xüsusiyyətə də malikdir. Başqa bir fərqli eksponat olan təbii qurudulmuş flaminqo isə "Qızılağac" qoruğunda mövcud olan 200-dən çox quş növünü simvolizə edir".

Otaqları dolaşdıqca qədim divarların müsbət aurası insanı 1 əsr öncəyə aparırdı sanki. Hər yanda o dövrün xarakterik əşyaları - mətrəşlər, xurcunlar, misdən hazırlanmış məişət əşyaları, manqal, sərpuş və saxsı qab-qacaqlar, fənərlər bir-birini əvəzləyir:

"Mis satıl və məcməyi o dövrdə qoğal bişirmək, yeməkləri isti saxlamaq üçün istifadə olunub. Saxsı fənəri isə içinə müxtəlif növlərdə heyvan yağları qoymaqla yandıraraq ətrafı işıqlandırıblar".

Başqa bir küncdə isə ilk insanların həyat tərzini özündə əks etdirən maketlər, balıqçılığın təsviri göstərilirdi. Münbit şəraitli təbiəti ilə gözoxşayan bölgənin ilk insanların məskəni olması hər kəsə məlumdur. Elə Lerik yolunun üzərində yerləşən "Buzeyir" mağarasının mövcudluğu bunu deməyə əsas verir.

Hə, yeri gəlmişkən onu da deyək ki, hazırda 3-cü mərtəbə ziyarətə bağlıdır. İkinci mərtəbədə sərgilənən əşyalar və mövcud guşələr məkanın populyarlığını artıran amillər sırasındadır. Daş ütülər, gül ləçəklərindən ətir hazırlamaqda istifadə olunan qablar, samovarlar, taxçalar, Abşeron-Qarabağ qrupuna aid olan xalçalar, həvəngdəstələr, cəhrə, məcməyi, əl dəyirmanı və daha nələr-nələr:

"Baxın, bu özü nadir əşya - XII əsrə aid olan kəşküldür. Kəşkül dərvişlərin boynunda olub, daha yüksək səslə danışa bilmələri üçün istifadə edilərmiş. II və I minilliklərə aid olan "pandorra" qolbaqlar və bəzək əşyaları da ziyarətçilərdə maraq doğuran eksponatlar sırasındadır".

Qeyd edək ki, hazırda çay bağçası və başqa iaşə obyektləri yerləşən sarayətrafı ərazilər əvvəllər xanın gül-çiçəkli bağçası olubmuş. Buranın zəngin ekspozisiyaları ilə tanışlığımız başa çatır. Mehriban kollektivlə sağollaşıb dərin təəssüratlarla Xan sarayından ayrılırıq.

✍ ***Banu***

# Hər ilməsi zəhmətə bağli ömür



***Onun haqqında yazmaq mənim üçün olduqca asandır, çünki tanıyıram, həm də illərdir tanıyıram. Dörd qardaşın tək bacısıdır. Canından artıq sevdiyi,b bu gün də adı çəkiləndə göz yaşına boğulduğu anası Şərqiyyənin yadigarları olan qardaşlarına, sözün həqiqi mənasında, anadır.***

MaşAllah, ürəkdən, sevgi ilə "bibi" deyib üstünə qanad açan neçə-neçə qardaşoğlusu, qardaşqızısı var. Birinin başı ağrısa, ürəyi yanar, dinclik tapmaz. Xeyir işlərində necə öndə olarsa, narahat, kədərli çağlarında da yanlarında yer alar sevdiklərinin.

...Dostluğu da gözəldir. Heç çəkinmədən ona hər dərdini danışa bilərsən. Dinləməklə qalmayacaq, edəcəyi köməyin variantlarını təqdim edəcək. O qədər diqqətli olacaq ki, bir də baxıb görəcəksən ki, səni elə ən az sənin özün qədər tanıyır.

Tanıyanlar gözəl avazının da olduğunu bilirlər. Sevdiyi bir mahnını zümzümə edəndə eşidərsənsə, ləzzət alarsan, yaxud da bir sevdiyinin ayrılığı ilə yanan ürəyinin sızıltısını söylədiyi oxşamaların insanın varlığını titrədən yanıqlı səsi səni səndən alıb aparar...

Onun haqqında yazmağın çətinliyi, narahatlığı da var. Bu narahatlıq isə "Birdən xoşuna gəlmədi" ilə bağlıdır.

Təqdimatım uzun çəkir, bilirəm, oxucunun artıq hövsələsinin daraldığının fərqindəyəm. "Nəhayət, kimdir bu insan?" sualını da eşitmiş kimi oluram. Elə isə buyurun. Bərdə Regional Mədəniyyət İdarəsinin Yevlax Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən şəhər Yaradıcılıq Evinin direktoru Zöhrə Adgözəlova haqqında qələmə aldığım yazının mabədi.

Yevlağın Nemətabad kəndində anadan olub Zöhrə xanım. Elə orada, kənd məktəbində də ilk təhsilini alıb. Körpəlikdən ədəbiyyat, şeir, incəsənət həvəsli olub. Odur ki, əvvəl oxuduğu məktəbdə, yaşadığı kənddə tədbirlərdə boy göstərib, çıxışları ilə tanınıb, sonra rayon mərkəzində düzənlənən müxtəlif səviyyəli tədbirlərdə istedadı, bacarığı ilə diqqət çəkib. Zamanla həyatını Yevlax mədəniyyəti ilə bağlayıb. Qarşısına 4 qardaşın qadağaları sədd olub, bu üzdən çətinliklər yaşayıb, amma az müddətdə hər kəsin, bütün anlamlarda inamını, etibarını qazanıb və yola davam edib.

İncəsənətə sonsuz sevgisi ilə öyrənməkdən, özünü inkişaf etdirməkdən heç zaman yorulmayıb. Tək-tək axtarıb tapdığı istedadlı uşaqları bir yerə cəm edərək musiqi kollektivi yaradıb. Yevlaxda Kukla Xalq Teatrının yaradıcısı və rejissorudur. Hazırladığı, quruluş verdiyi maraqlı tamaşaların seyrçisi tək Yevlax məktəbliləri olmur, kollektivlə birgə qonşu rayonlara da səfərlər edir. Yaradıcılıq evi nəzdindəki B.Səfəroğlu adına Xalq Teatrına, "Ocaq" Ədəbi Birliyinə də rəhbərlik edir Zöhrə xanım, həm də bu işləri bacarıqla görür. Teatr hər mövsüm yeni tamaşa ilə yevlaxlıların görüşünə gəlir. "Ocaq"ın məclisləri də şeirdən, musiqidən zövq almağın əsl məkanı olur.

Onun Mədəniyyət İşçiləri Həmkarlar İttifaqının Yevlax rayon komitəsinin sədri kimi də fəaliyyəti haqqında ürəkdolusu danışmaq olar. Daim həmkarlarının yanında olan, onların rastlaşdıqları problemlərin həlli üçün səy göstərən, pozulan büquqları uğrunda çalışan Zöhrə xanımı komitənin üzvləri öz aralarında zarafatla "Fəhlənin atası"m adlandırırlar. Onun yaxşı işi həmişə dəyərini alıb. "Teatr baharı-78" Ümumittifaq Festivalının laureatı olub, Yevlax Şəhər İcra Hakimiyyəti, YAP rayon təşkilatı, Mədəniyyət Nazirliyi, Mədəniyyət İşçiləri Respublika Komitəsi və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən döş nişanına, fəxri fərmanlara, diplomları layiq görülüb.

2012-ci ildə isə mədəniyyət sahəsindəki fəaliyyətinə görə ölkə Prezidentinin sərəncamı ilə "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülüb.

Zöhrə xanımın fəaliyyəti barədə ayrı-ayrı vaxtlarda müxtəlif mətbu orqanlarda, o cümlədən bizim "Kür" qəzetində yazılar gedib. Niyə məhz indi onun haqqında bu qədər geniş söz açdıq, portretini yaratmağa çalışdıq? 2021-ci il təqviminin may ayı Zöhrə xanımın yubiley yaşını göstərir. O isə yubileyinin geniş şəkildə keçirilməsinə qarşıdır. Səbəbsə, qardaşı oğlu Faiq Adgözəlovun İkinci Qarabağ Müharibəsində şəhid olmasıdır. Sevdiyi Faiqin yoxluğunu heç cür qəbul edə bilmir...

Çalışdım ki, onun yubileyinin bir yazı qələmə almaqla səssiz-ünsüz, adi keçməyə qoymayım. 43 illik fasiləsiz fəaliyyəti, nümunəvi işi bir də belə dəyərini alsın. Necə bir yazı alındığını oxucu söyləyə bilər, amma mən bəzəksiz-düzəksiz, içdən gələn bir səmimiyyətlə olanları deməyə çalışdığıma əminəm. Özünün xoşuna gəldiyi təqdirdə isə, qoy bu da mənim və çalışdığım qəzet kollektivinin Zöhrə Adgözəlovaya yubiley hədiyyəsi olsun!

Sağlıqlı və rahatlıq dolu uzun ömür, bol yaradıcılıq uğuru diləyilə.

✍ ***Xanım NƏSİBOVA***

## GÜNÜN FOTOSU



Samirə Əfəndi Eurovisionun açılışında...

## "İtaliyalı memarın Şuşada yeni məscid layihəsi...

**Elçin Əliyev,**
memar, professor

Hacı Sultan Əli və Təzəpir Məscidlərini də polşalı memarlar layihələndirib.

Səh. 5

## STATİSTİKA



- Göyərçinlərin gözü insan gözü ilə müqayisədə 3 dəfə daha həssasdır. Göyərçin gözü saniyədə 75 kadr qəbul etmək imkanına malikdir.
- Göyərçinlər havada saatda 75 kilometr sürətlə uçurlar.
- Göyərçinlərin 300-dən çox növü var və onlar Antarktidadan başqa bütün materiklərdə yaşayırlar.
- Göyərçinlərin bəzi növləri sutkada 1000 kilometr məsafə qət edir.



Səh. 7

## "Hər şey o qədər möhtəşəm idi ki..."